# Xalq qəzeti

Xalqın qəzeti!

№ 233 (30927) 31 oktyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Zəfər ünvanlarında Qayıdış təntənələri




Düz 5 il bundan əvvəl bu ərazi işğaldan azad edildi və bu şanlı tarix hər zaman bizim qəlbimizdə yaşayacaq. Bir neçə gündən sonra biz tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. 8 Noyabr Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. 5 il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb.

Azərbaycan xalqı mərd xalqdır, qəhrəman xalqdır, iradəli xalqdır, öz torpağına bağlı olan xalqdır. Biz sübut etdik ki, işğalla barışmaq fikrində deyildik, halbuki bunu dəfələrlə bəyan etmişdik. Döyüş meydanında 300-dən çox şəhər, qəsəbə, kənd azad edildi və Ermənistan kapitulyasiya aktına imza ataraq təslim olmağa məcbur oldu.

O gündən bu yana quruculuq işləri ilə məşğuluq. Bu gün bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydançasıdır. Artıq 50 mindən çox insan Qarabağda, Şərqi Zəngəzurda yaşayır, çalışır, təhsil alır. Onlardan, təqribən, 20 mini keçmiş köçkünlərdir ki, öz vətəninə, doğma torpağına qayıdıblar.

"Böyük Qayıdış"ın əyani sübutu bu gün gözünüzün önündədir. Belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Brüsseldə milyardlıq "üsyan"



## *Büdcə rəqəmləri arxasında siyasi mübarizə*

**"Qoca qitə" siyasətinin mərkəzində Avropa İttifaqının gələcək idarəçilik modelini müəyyən edəcək qarşıdurma yaşanır. Avropa Parlamentinin siyasi spektrini təmsil edən dörd aparıcı qrup – mərkəz-sağ Avropa Xalq Partiyası (EPP), mərkəz-sol Sosialistlər və Demokratlar (S&D), liberal Yenilənən Avropa (Renew Europe) və Yaşıllar – Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenə qarşı vahid cəbhə formalaşdırıb. Onlar ittifaqın növbəti yeddiillik büdcə planında əsaslı dəyişikliklər edilməsini tələb edən qəti mövqe nümayiş etdirirlər.**

*(ardı 4-cü səhifədə)*

# Cəlil Məmmədquluzadənin ana dili və əlifba islahatı uğrunda mübarizəsi

**I Türkoloji Qurultaydan əvvəlki illərdə görkəmli ədibimiz Cəlil Məmmədquluzadə "Tiflisski listok", "Molla Nəsrəddin", "Yeni yol", "Kommunist", "Vozrojdeniye", "Zaqafqaziye" kimi qəzet-jurnallarda, Azərbaycan və rus dillərində çıxan digər dövri nəşrlərdə ana dilinin tədrisi, yeni əlifba, sivil təhsil, mədəni inqilab və s. məsələlərlə bağlı silsilə publisistik məqalələr dərc etdirmişdir.**

Yazıçı-publisist həmin mövzular arasında yeni əlifbaya keçidin zəruriliyinə daha geniş yer vermişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan bir qədər sonra Xalq Komissarları Soveti əlifba məsələsini müzakirə edib, yeni əlifbaya keçmək haqqında dövlət səviyyəsində qətnamə qəbul etdi. 1922-ci il yanvar ayının 6-da Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycan ziyalılarının toplantısında aparılan geniş müzakirədə latın əlifbasının tərəfdarları üstünlük qazandı və 9 nəfərdən ibarət yeni komissiya yaradıldı.

*(ardı 9-cu səhifədə)*




## Ədalət, ləyaqət və fəxarət ideallarının bərpası



Səhifə ⇨ 5

## Azərbaycan və Özbəkistanın çoxşaxəli əməkdaşlıq modeli



Səhifə ⇨ 5

## Avronest tribunasında yanlış təqdimat



Səhifə ⇨ 3

## Paşinyana qarşı "Ambartsumyan planı"



Səhifə ⇨ 4

## Suveren Fondların Beynəlxalq Forumunun Əbu-Dabi toplantısı



Səhifə ⇨ 6

## ABŞ və Çin liderlərinin Pusan görüşü nəyi dəyişdi?



Səhifə ⇨ 11

## Ermənistan hərbçiləri insanlıq simasını itirmişdilər



Səhifə ⇨ 10

# Azərbaycan–BƏƏ çoxşaxəli əməkdaşlığının perspektivləri

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 30-da Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri Saqr Qobaşla görüşüb.**



Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın birgə səyləri sayəsində iki ölkə arasında əlaqələrin yüksək inkişaf dinamikası nümayiş etdirdiyi diqqətə çatdırılıb.

Cari ilin sentyabr ayında "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"nin imzalanması ilə Azərbaycan-BƏƏ münasibətlərinin yeni mərhələyə qədəm qoyduğu bildirilib.

İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın və qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyi vurğulanıb. Parlamentlərarası münasibətlərə də toxunularaq, parlament səviyyəsində qarşılıqlı səfərlərin və hər iki ölkənin qanunverici orqanlarında fəaliyyət göstərən dostluq qruplarının hərtərəfli əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynadığı qeyd edilib.

Görüşdə Azərbaycan ilə BƏƏ arasında iqtisadi-ticari, investisiya, bərpaolunan enerji, neft-qaz, informasiya texnologiyaları, süni intellekt və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri müzakirə edilib.

***XQ***

# Naxçıvanda Gələcəyin Peşələri Sammiti






**Oktyabrın 30-da Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Naxçıvanda Gələcəyin Peşələri Sammiti keçirilib.**

Məqsəd əmək bazarında yeni peşə və bacarıqlarla bağlı tələbləri, texnologiya və innovasiyaların iş dünyasına təsirlərini peşəkar mühitdə müzakirə etmək, təhsil və məşğulluq sahələrində yeni çağırışlar nəzərə alınmaqla bu ekosistem iştirakçılarının gələcək əmək bazarına hazırlığını dəstəkləməkdir.

Sammitdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf siyasətinin mərkəzində məhz insan amili, onun bilik və bacarıqları dayanır. O, gələcəyin peşələrinin artıq bu gündən formalaşdığını, bu baxımdan, muxtar respublikada təhsil, biznes və dövlət sektorunun sıx əməkdaşlığı sayəsində yeni istiqamətlər üzrə hazırlıq və təcrübə proqramlarının genişləndirilməsinin vacibliyini diqqətə çatdıraraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə mühüm addımlar atılır.

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli belə bir sammitin təşkilinin ölkəmizin məşğulluq siyasətində yeni düşüncə mərhələsinin göstəricisi, insan kapitalına, eləcə də bilik və bacarıqların gələcək nəsillərə ötürülməsinə yönəlmiş strateji baxışın ifadəsi olduğunu qeyd edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, süni intellekt 4-cü sənaye inqilabının ən yeni çağırışıdır. O vurğulayıb ki, "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi bu çağırışlara cavab verməklə gələcəyin ixtisaslı kadr potensialını gücləndirməyə xidmət edir.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti, Naxçıvan Sahibkarlar Konfederasiyası İdarə Heyətinin sədri Vüqar Abbasov tədbirdə çıxış edərək bildirib ki, gələcəyin peşələri özəl sektor üçün, sadəcə, insan resursu deyil. Onlar şirkətlərin innovasiyaya yönəlmiş strategiyasının mərkəzində dayanır.

Tədbir "Əmək bazarının transformasiyası" və "Dəyişikliklərə adaptasiya" adlı iki panel müzakirəsi ilə davam edib.

***XQ***

# "Medinex 2025" sərgisinin açılış mərasimi



**Oktyabrın 30-da Bakıda Azərbaycanın səhiyyə sahəsində mühüm tədbirlərdən olan 27-ci Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisinin ("Medinex 2025") açılış mərasimi keçirilib.**

Açılış mərasimində Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov sərginin Azərbaycanda keçirilməsinin çox yaxşı ənənəyə çevrildiyini deyib. O, eyni zamanda bildirib ki, gələcəkdə məqsəd ambulator müalicədə olan xəstələrin də dərman preparatları ilə təmin olunmasıdır. "Bu sahədə məqsədyönlü, ardıcıl iş aparılır və nəticələri yaxın gələcəkdə daha aydın görünəcək", - deyə o diqqətə çatdırıb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Azərbaycanda son illər səhiyyə sahəsində geniş islahatların həyata keçirildiyinə diqqət çəkib: "Bu islahatların nəticəsi olaraq, artıq hər il 5 milyondan çox vətəndaş icbari tibbi sığortadan yararlanır".

Səhiyyə nazirinin müavini Rasim İsmayılov vurğulayıb ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın əhalinin sağlamlığının qorunmasına göstərdikləri xüsusi diqqət və qayğının nəticəsidir ki, ölkəmizdə müasir səhiyyə infrastrukturu yaradılır, tibb müəssisələri ən son texnoloji avadanlıqlarla təchiz olunur və maddi-texniki baza gücləndirilir.

TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov Azərbaycanda səhiyyə sahəsində son illər aparılan islahatların xidmətlərin keyfiyyətinin artırılmasına, əhalinin sağlamlığının qorunmasına və tibbi xidmətlərin daha əlçatan olmasına yönəldiyini diqqətə çatdırıb. O qeyd edib ki, "Medinex 2025" sərgisi bu baxımdan çox vacib platformadır.

"Caspian Event Organisers"in Baş direktoru Fərid Məmmədov isə "Medinex" sərgisinin artıq regionun tanınmış səhiyyə platformalarından birinə çevrildiyini deyib.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

***XQ***

# Birgə təlim başa çatıb

**Ölkəmizdə Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri (XTQ) və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezident Qvardiyasının Xüsusi Əməliyyat Komandanlığı bölmələrinin iştirakı ilə keçirilən "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə xüsusi təyinatlı qüvvələr təlimi oktyabrın 30-da başa çatıb.**



Təlimin bağlanış mərasimində çıxış edənlər Azərbaycan və BƏƏ-nin xüsusi təyinatlıları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini, keçirilən birgə təlimin ölkələrin XTQ mənsubları arasında təcrübə mübadiləsi, döyüş hazırlığı səviyyəsinin artırılması və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.



Təlimdə fərqlənən hərbi qulluqçular mükafatlandırılıb, hədiyyə mübadiləsi həyata keçirilib.

***XQ***

# İ.V.Rzayevin Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

İslam Vahid oğlu Rzayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

# Azərbaycan–Özbəkistan əlaqələri müzakirə olunub



**Oktyabrın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səmərqəndə işgüzar səfəri çərçivəsində Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir Ceyhun Bayramov ilk dəfə olaraq Özbəkistanın UNESCO-nun baş konfransına ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb.

Görüş zamanı strateji müttəfiqlik səviyyəsində Azərbaycan-Özbəkistan əlaqələrinin bütün sahələrdə dinamik inkişafından məmnunluq ifadə edilib, iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi istiqamətində birgə səylər müzakirə olunub.

İqtisadiyyat, ticarət, investisiyalar, nəqliyyat, energetika, mədəniyyət və humanitar sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üzrə aparılan birgə fəaliyyətlər və layihələr nəzərdən keçirilib.

Görüşdə beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, eləcə də regional platformalar çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüş zamanı, həmçinin regional inkişaf, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Hirkan" filminin təqdimatı

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Hirkan" sənədli filminin təqdimat mərasimində iştirak edib.**

Təqdimat oktyabrın 29-da Qəbələ şəhərində yerləşən Heydər Əliyev Konqres Mərkəzində keçirilib. Film IDEA İctimai Birliyinin "Azərbaycanın 12 möcüzəsi" adlı xüsusi layihəsi çərçivəsində hazırlanan növbəti ekran işidir və Azərbaycanın təbiət incilərindən biri olan Hirkan Milli Parkına həsr olunub.

"Hirkan" sənədli filmi ölkəmizin nadir flora və faunasına malik bu təbiət guşəsinin unikal ekosistemini və onun qorunması istiqamətində həyata keçirilən fəaliyyətləri özündə ehtiva edir. Filmin rejissoru İqor Bışnyovdur.

Layihənin təşəbbüskarı olan Leyla Əliyevanın rəhbərliyi ilə bu günədək ümumilikdə səkkiz sənədli film hazırlanıb. Bu filmlər sosial şəbəkələrdə milyonlarla izləyici tərəfindən maraqla qarşılanaraq ölkəmizin zəngin təbiətinin təbliğinə mühüm töhfə verib.









***XQ***

# BƏƏ parlament sədri Milli Məclisdə



**Oktyabrın 30-da ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri Saqr Qobaşın rəhbərlik etdiyi parlament nümayəndə heyəti Milli Məclisə gəlib.**

Qonaqlar parlamentin plenar iclas zalı ilə tanış olduqdan sonra Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar, Saqr Qobaş burada Xatirə kitabını imzalayıb.

Sonra Sahibə Qafarova ilə Saqr Qobaş arasında təkbətək görüş keçirilib. Görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Parlamentin sədri BƏƏ Federal Milli Şurasının sədrinin ölkəmizə ilk rəsmi səfərinin iki ölkə arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi, əməkdaşlıq imkanlarının genişlənməsi və parlamentlərarası münasibətlərin dərinləşməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə dövlətlərarası münasibətlərin dinamik və hərtərəfli inkişafından məmnunluq ifadə olunub. Vurğulanıb ki, tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olan iki ölkə arasında əlaqələr yüksək səviyyədədir. Fəal siyasi dialoqun rolu xüsusi vurğulanaraq, ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfər və görüşlərin, imzalanan sənədlərin bu prosesdə mühüm əhəmiyyət daşıdığı bildirilib.

Azərbaycana ilk rəsmi səfərindən və Beynəlxalq Parlament Konfransında iştirakından məmnunluğunu bildirən Saqr Qobaş ölkəsinin ikitərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini vurğulayıb. Qonaq səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Qanunverici orqanlar arasında imzalanmış əməkdaşlığa dair Anlaşma Memorandumuna əsaslanaraq əlaqələrin daha da inkişaf etdirilməsi məsələləri nəzərdən keçirilib.

*XQ*

# Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət





**Ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri Saqr Qobaşın başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 30-da Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyub.

*XQ*

# Nigeriyalı müəllifin Qarabağ salnaməsi



**Oktyabrın 30-da Beynəlxalq Avrasiya Mətbuat Fondunun sabiq əməkdaşı, nigeriyalı Nik Nvolisanın "Mənim Qarabağa səfərim" adlı kitabının təqdimat mərasimi keçirilib.**

layan dirçəliş və "Böyük Qayıdış" hekayəsini əks etdirdiyini vurğulayıb. Azərbaycan Beynəlxalq Məktəbinin direktoru Angela Romney çıxışında deyib ki, kitab Azərbaycanın müxtəlif dövrlərdəki hadisələrini, Qarabağın tarix boyu keçdiyi çətinlikləri və xalqın mübarizəsini işıqlandırır.

Təqdimat mərasimində çıxış edən Milli Məclisin deputatları Səməd Seyidov, Ceyhun Məmmədov, Fazil Mustafa, Razi Nurullayev, Əməkdar jurnalist Azər Həsrət və başqaları tədbirin Azərbaycanın həqiqətlərini beynəlxalq auditoriyaya çatdırmaq baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıblar.

Qeyd edək ki, 20 ilə yaxındır Azərbaycanda yaşayan Nigeriya vətəndaşı Nik Nvolisa Xəzər Universiteti, Slavyan Universiteti və ADA Universiteti kimi nüfuzlu təhsil ocaqlarında təhsil alıb, eləcə də burada ailə həyatı qurub. Azərbaycana gəldikdən sonra 2007-ci ildə əmək fəaliyyətinə BAMF-də könüllü kimi başlayan və sonradan təşkilatın Proqram departamentinin rəhbəri vəzifəsinədək yüksələn Nik Nvolisanın bu kitabı onun ölkəmizdə sosial-humanitar və vətəndaş cəmiyyəti sahəsində göstərdiyi uzunmüddətli fəaliyyətinin, topladığı təcrübəsinin bədii və elmi inikasıdır. Əsərin maraqlı və vacib cəhətlərindən biri də onun XXI əsrdə Azərbaycana köç etmiş bir miqrantın baxış bucağından yazılmasıdır, bu da bölgənin sosial və iqtisadi mənzərəsinə yeni və fərqli bir yanaşma gətirir.



Tədbirin moderatoru, Mətbuat Şurasının sədri Rəşad Məcid kitab barədə danışaraq, nəşrin əhəmiyyətini və Qarabağ haqqında məlumatların xaricdə təbliği baxımından vacibliyini vurğulayıb.

Azərbaycanın Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin Baş katibi Çingiz Abdullayev çıxışında yerli yazıçıların əsərlərinin ingilis, rus, fransız və digər dillərə tərcüməsinin vacibliyini vurğulayıb. O bildirib ki, tərcümələrin sayı artdıqca Azərbaycan həqiqətləri daha geniş auditoriyaya çatacaq.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev təqdim olunan kitabın Qarabağın tarixini, xalqın çəkdiyi əzabları, 2020-ci ildən sonra baş-

# Avronest tribunasında yanlış təqdimat

## *Simonyanın bəyanatı sülh prosesinə qarşı yönəlib*

**Ermənistan Respublikasının bir qrup vətəndaşının Bakı Hərbi Məhkəməsində mühakimə olunması qonşu ölkədə ən çox diqqət yetirilən məsələlərdən biridir. Azərbaycanın cinayət-prosessual qanunvericiliyinin tələblərinə, habelə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə tam uyğun həyata keçirilən mühakimə nədənsə İrəvanda həm siyasi dairələrdə, həm də ictimai müstəvidə ciddi rezonans doğurub. İşin maraqlı tərəfi ondadır ki, indiyədək bu barədə daha çox müxalifət, yaxud müxalifyönümlü, müstəqil və bitərəf şəxslər danışırdılar. Son aylarda isə Ermənistan hökumətini və parlamentdə hakim "Mülki müqavilə" partiyasını təmsil edən şəxslər də bu məsələni tez-tez qaldırırlar.**

Belə şəxslərdən biri Ermənistan Milli Assambleyasının sədri Alen Simonyandır. O, son bir həftə ərzində iki dəfə "hərbi əsir" və "girov" adlandırdıqları şəxslərin məhkəmə prosesindən bəhs edib. Birinci dəfə oktyabrın 22-də jurnalistlərə müsahibəsində deyib: "Mən hansısa beynəlxalq formatlar çərçivəsində Azərbaycan Prezidentinin Ermənistana gəlməsini, ölkəmizin liderinin onlara getməsini istisna etmirəm. Mən də Azərbaycana getməyə hazıram". Amma Simonyanın fikrincə, bundan əvvəl müzakirə edilməli məsələlər var: "Bu, təkcə təhlükəsizlik məsələsi deyil, həm də saxlanılanların məsələsidir. Bizim üçün ora getmək çətindir. Eyni vaxtda orada saxlanılan şəxslərin olduğunu bilərək ora necə gedə bilərik? Onların arasında həm əsirlər (?), həm də girovlar (?) var. Mən nikbin əhvali-ruhiyyədəyəm, lakin konkret nəticələr əldə olunana qədər məsələni müzakirə etməyəcəyik".

Simonyan bu barədə ikinci dəfə oktyabrın 29-da danışıb. Həmin gün Şərq Tərəfdaşlığı Parlament Assambleyasının (Avronest PA) 12-ci plenar sessiyasının açılış mərasimində çıxış edən spiker bildirib: "Avronest Parlament Assambleyasının əvvəlki sessiyasında mən Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olması məsələsinə toxundum və tərəflərin razılığa gəlmək ərəfəsində olduğunu qeyd etdim. Və budur, 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin iştirakı ilə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Elə həmin gün Ermənistan və Azərbaycan xarici işlər nazirləri iki ölkə arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin mətnini parafladılar. Bəyannamənin qəbul edilməsi və sülh sazişinin paraflanması sülhün bərqərar olmasına dəlalət edir. Buna baxmayaraq, bir sıra humanitar məsələlər həll olunmamış qalır: Azərbaycanda saxlanılan şəxslər, "hərbi əsirlər" məsələsi həllini tələb edən ciddi problem olaraq qalmaqdadır. Daha bir vacib humanitar prioritet itkin düşmüş çoxsaylı şəxslərin taleyinin aydınlaşdırılmasıdır".



*

A.Simonyanın səsləndirdiyi fikirlərlə bağlı ilk növbədə onu qeyd etmək lazımdır ki, Bakıda mühakimə olunan erməni əsilli şəxslər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilirlər. Onların "hərbi əsir", yaxud "girov" adlandırılması hüquqi baxımdan tamamilə əsassızdır. Çünki sözügedən şəxslər beynəlxalq humanitar hüququn müəyyən etdiyi statusa malik deyillər. Məhz buna görə də onlar yerli qanunvericiliyə və beynəlxalq konvensiyalara uyğun şəkildə, fərdi məsuliyyət prinsipi əsasında mühakimə olunurlar. Beynəlxalq hüququn, xüsusən də 1949-cu il Cenevrə konvensiyalarının müddəalarına əsasən, "hərbi əsir" statusu yalnız silahlı münaqişə zamanı düşmən tərəfin silahlı qüvvələrinin tərkibində iştirak edən və ələ keçirilən şəxslərə şamil olunur. Bakıda mühakimə olunanlar isə hamıya məlum olduğu kimi bu kateqoriyaya daxil deyillər.

Bu şəxslərin "girov" adlandırılması da hüquqi baxımdan tamamilə əsassızdır. Girov anlayışı beynəlxalq hüquqda mülki şəxslərin qanunsuz saxlanması və ya təzyiq vasitəsi kimi istifadə edilməsi mənasında işlədilir. Lakin Azərbaycan həmin şəxsləri girov kimi deyil, cinayət məsuliyyətinə cəlb olunmuş təqsirləndirilən şəxslər kimi saxlayır. Onlara qarşı ittihamlar konkret sübutlara əsaslanır, istintaq və məhkəmə prosesi isə qeyd etdiyimiz kimi, həm yerli qanunvericiliyin, həm də beynəlxalq hüququn prinsiplərinə uyğun aparılır. Bu faktlar göstərir ki, onlar hərbi əsir və ya girov kateqoriyalarına aid edilə bilməzlər.

Güman etmək olar ki, Ermənistanın bu şəxsləri siyasi məqsədlərlə "əsir" kimi təqdim etməsi həm beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq, həm də öz ictimaiyyətində yaranmış narazılıqları gizlətmək niyyəti daşıyır. Bu, reallıqdan uzaq, təbliğat xarakterli bir yanaşmadır. Azərbaycan isə bu məsələdə tam şəffaf mövqe nümayiş etdirir. Bütün hüquqi prosedurlar açıq və qanunvericiliyin tələblərinə uyğun keçirilir. Ermənistanın bu şəxsləri "hərbi əsir" kimi təqdim etməsi cəhdləri isə hüquqi deyil, təbliğati məqsəd daşıyır. Əslində, bu hadisə bir daha sübut edir ki, Ermənistan hələ də münaqişə sonrası mərhələdə məsuliyyət hissindən uzaq davranır və keçmiş separatçı rejimin başçılarının əməllərini "siyasi kart" kimi istifadə etməyə çalışır. Azərbaycanın mövqeyi isə prinsipialdır. Müharibə dövründə və ya ondan sonra ölkə ərazisində törədilən bütün əməllərə görə fərdlər məsuliyyət daşımalı, heç bir siyasi don bu məsuliyyəti gizlədə bilməməlidir.

A.Simonyanın son çıxışları bir daha göstərir ki, İrəvan siyasi elitası hələ də reallıqla barışmaq istəmir və hüquqi faktları emosional ritorika ilə əvəzləməyə çalışır. Halbuki onlar çox yaxşı bilirlər ki, bu terminlərin işlədilməsi həm hüquqi baxımdan, həm də faktoloji cəhətdən əsassızdır. Məhz Ermənistan rəhbərliyinin belə çıxışları cəmiyyətdə yanlış təsəvvür formalaşdırır, beynəlxalq ictimaiyyətdə isə sülh prosesinə kölgə salır. Bu cür bəyanatlar münaqişədən sonrakı mərhələdə konstruktiv addım deyil, əksinə, populist çıxışlar kimi qiymətləndirilməlidir.

Onun oktyabrın 22-də səsləndirdiyi fikirlərdə əsas məqsəd daxili auditoriyanı sakitləşdirmək, eyni zamanda, Azərbaycanla münasibətlərin normallaşması istiqamətində atıla biləcək addımları hansısa "şərtlərlə" bağlamaq idi. Oktyabrın 29-dakı çıxışı isə əvvəlkindən daha sistemli şəkildə hazırlanmışdı. O, əvvəlcə Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olduğunu vurğulayıb, sonra Vaşinqtonda imzalanan Bəyannaməni xatırladıb, ardınca isə "həll olunmamış humanitar məsələlər"dən danışmağa başlayıb. Burada məqsəd aydındır: beynəlxalq tribunadan istifadə edərək məsələyə humanitar don geyindirmək və Ermənistanın üzərinə düşən məsuliyyəti azaltmaq.

Simonyanın ritorikasında ziddiyyətli məqam ondan ibarətdir ki, o, bir tərəfdən sülh prosesini alqışlayır, digər tərəfdən isə bu sülhə mane olan emosional və əsassız ittihamlar səsləndirir. Belə bəyanatlar Ermənistan cəmiyyətində yeni gərginlik yaradır, ictimai rəydə "azabkeş millət" obrazını daha da dərinləşdirir. Halbuki regionda sabitlik yalnız məsuliyyətin və hüququn tanınması ilə mümkündür.

**Politoloq İlyas Hüseynov** hesab edir ki, A.Simonyanın "hərbi əsir" və "girov" ifadələrindən istifadə etməsi Ermənistanın siyasi manipulyasiya cəhdidir. Onun sözlərinə görə, Simonyanın çıxışlarında bu ifadələrdən istifadə etməsi Ermənistanın reallığı siyasi məqsədlərə uyğun şəkildə dəyişdirmək cəhdidir: "Ermənistan rəhbərliyi uzun illərdir beynəlxalq ictimaiyyəti emosional ritorika vasitəsilə təsir altına salmağa çalışır, lakin bu dəfə həmin taktika nəticə vermir. Bu şəxslər nə girov, nə də hərbi əsir statusuna malikdirlər. Azərbaycan tərəfi həmin şəxslərə qarşı beynəlxalq hüququn tələblərinə uyğun davranır və bu, heç bir siyasi təzyiqin obyekti ola bilməz".



Ekspertin sözlərinə görə, İrəvan rəhbərliyi "əsir məsələsi"ni gündəmdə saxlamaqla həm daxili auditoriyanın diqqətini real sosial problemlərdən yayındırmaq, həm də beynəlxalq arenada, necə deyərlər, məzlum tərəf obrazını qorumaq istəyir: "Bu, əslində, sülh prosesinin ruhuna zidd addımdır. Əgər Ermənistan həqiqətən sabitlik istəyirsə, o zaman hüquqi faktları qəbul etməli, heç bir fərdi törətdiyi əmələ görə məsuliyyət daşımaqdan yayındırmağa çalışmamalıdır".

***Səxavət HƏMİD***
***XQ***

# Paşinyana qarşı “Ambartsumyan planı”

## *Keçmiş dövlət rəsmisinin “dilə gəlməsi” nəyə hesablanıb?*

**Mikael Ambartsumyan. Bu şəxs Ermənistanın Milli Təhlükəsizlik Xidməti direktorunun vəzifələrini icra edib. Özü də 44 günlük müharibə dönəmində. İndi isə ölkənin “News.am” media qurumuna müsahibəsində keçmişdə yaşananlara, belə demək mümkünsə, işıq salıb. Əslində, dedikləri ilə Ermənistanın gələcəyinə zülmət vədi verib.**

Ötən sayımızda M.Ambartsumyanın 44 günlük müharibə dövründə baş nazir Nikol Paşinyanın fəaliyyəti, eləcə də savaşın vaxtında dayandırılmasının vacibliyinə dair fikirlərini diqqətə çatdırdıq. Ümumən, belə nəticəyə gəldik ki, bu şəxs, necə deyərlər, oxu atıb yayı gizlətməklə məşğuldur və keçmiş dövlət rəsmisinin seçdiyi üslubu maraqlı edən budur.

Bəli, – M.Ambartsumyan ölkəsinin hakim komandasını müxalif kəsimin nümayəndələri kimi tənqid edib, ənənəvi “xain” və “satqın” klişelərini gündəmə gətirmir. Hiss olunur ki, onu hazırlayıb ortaya atanlar erməni ictimai rəyinin “incəliyini” nəzərə alıblar. Yəni düşünüblər ki, qeyd etdiyimiz klişelər keçərli deyil. Buna görə M.Ambartsumyan bəzi fikirləri ilə obyektiv şəxs təsiri bağışlayır. Məsələn, o, bir çoxlarının Paşinyanın müharibə müddətində həmişə içkili olduğuna dair iddialarını inkar edir və baş nazirin hər gün iş başında olduğunu, hətta kabinetində gecələdiyini, təcili iclaslar keçirdiyini bildirir. Müharibənin zamanında dayandırılması kimi vacib məsələyə gəldikdə, Ambartsumyanın dediklərindən hasil olan qənaət budur: əgər Paşinyan Rusiya ilə razılaşsaydı, Ermənistan müharibədə məğlubiyyətlə, itkilərlə üzləşməzdi.

Rusiyanın bəzi dairələrinin istər 44 günlük müharibədən, istərsə də Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirlərindən sonra ortaya atdıqları tezisə görə, həm savaşdakı məğlubiyyət, həm də Qarabağın tamamilə itirilməsi erməni milli identikliyinə ağır zərbədir. Jurnalistika adına ləkə gətirən Vladimir Solovyov adlı birinin erməni varlığı üçün Qarabağın əldən çıxmasını rüsvayçılıq kimi təqdim edib qıcıqlandırıcı mövqe tutduğunu da bilirik.

M.Ambartsumyan təxminən eyni mövqeni bölüşür, sadəcə, onun təqdimatı çılpaq deyil, ehtiyatlıdır. O bildirir ki, əgər Paşinyan 2026-cı ilədək hakimiyyətdə qalmağı bacarsa, Ermənistan Azərbaycanın quberniyasına çevriləcək. Diqqət yetirək, sabiq dövlət rəsmisi





belə deyərkən Nikolun və komandasının 2026-cı il parlament seçkilərində qələbəsinin potensial nəticələri üzərinə fokuslanmır. Onun subliminal mesajı seçkiyədək hakimiyyətin devrilməsinin vacibliyi xüsusundadır. Yeri gəlmişkən, Ermənistanda hakimiyyətə etimadsızlıq kampaniyası təşkil etmək istəyənlərin də məqsədi budur ki, Paşinyan və komandası seçkidə iştirak şansı qazanmasın. Onların direktivləri haradan aldıqları məlumdur.

Onu da bildirək ki, Ermənistandakı radikal kəsimə direktivlər ötürənlərin təlqin etdikləri baxış azərbaycanlıların və ermənilərin dinc şəkildə birlikdə yaşamalarının qeyri-mümkünlüyü ideyasına söykənir. Bu ideyanı yayanlar bildirirlər ki, iki xalq arasında nizamlayıcı ancaq Rusiya olmalı, Moskva onları qarşıdurmadan uzaq tutmalıdır. Əlbəttə, bu “xoş niyyət” elə-belədən deyil. Məlumdur ki, Kreml uzun müddət Qarabağ münaqişəsinə Cənubi Qafqazda mövcudiyyət aləti kimi yanaşıb. Hazırda münaqişə yoxdur, üstəlik, Bakı və İrəvan yekun sülh yolunda addımlayır. Bu prosesin qarşısı isə Paşinyanın hakimiyyətdən uzaqlaşdırılması ilə alına bilər.

Beləliklə, nəinki M.Ambartsumyan, eləcə də xaricdən direktiv alanlar gözəl anlayırlar ki, Paşinyanı seçki yolu ilə siyasi səhnədən silmək mümkünsüzdür. Erməni xalqı Nikol və komandasından nə qədər narazı olsa da, əks düşərgə sahiblərinə bir o qədər nifrət bəsləyir. Nifrət həm də Qarabağ avantürasına görədir. O avantüraya görə ki, minlərlə dinc erməni gəncinin həyatına son qoydu, bir o qədər dinc erməni sakin hələ də müharibədə itkin düşmüş övladının yolunu gözləyir.

Bir sözlə, sıravi ermənilər Azərbaycanla və azərbaycanlılarla ziddiyyət və qarşıdurmanın sona çatmasını, münasibətlərin nizama düşməsini arzulayırlar. Bu arzunun reallaşmasına maneçilik törədənlərin cəbhəsində yer alan M.Ambartsumyan pafosu işə salaraq bildirib ki, Paşinyanın hakimiyyətdə qalması ilə Ermənistan Azərbaycanın quberniyasına çevriləcək. Amma o, belə təqdimatların ənənəvi stereotiplərindən nisbətən uzaqdır və çox yaxşı bilir ki, indiki dövrdə azərbaycanlıların gəlib erməniləri qətlə yetirəcəkləri, qırğınlar törədəcəkləri kimi deyimlər təsirini itirib. Bu səbəbdən sabiq təhlükəsizlik şefi gələcək sülh mühiti üçün proqnoz verir. Əlbəttə ki, buna proqnoz demək mümkündürsə: “Bu o demək deyil ki, onlar (azərbaycanlılar – red.) gələcək və evlərimizdə qırğın törədəcəklər. Bu, yumşaq güc vasitəsilə təzyiqin artacağı anlamına gəlir. Elə həmin “dostcasına” proses başlayacaq və bir müddət davam edəcək. Azərbaycanlılar Ermənistana köçüb yaşayacaqlar. Onlara dövlət səviyyəsində təminatlar veriləcək. Əhalinin tarazlığı dəyişməyə başlayacaq və azərbaycanlılar Azərbaycan və Türkiyə tərəfindən maliyyələşdiriləcəklər. De-yure, kağız üzərində biz müəyyən müddət müstəqilliyi qoruya bilərik, amma de-fakto onu itirəcəyik. Biz Azərbaycanın quberniyasına çevriləcəyik”.

Ayının min oyunu bir armudun başındadır. Bu el misalımızı Ambartsumyanın danışmaq məqsədi baxımından dəyərləndirsək, sabiq dövlət rəsmisinin müsahibəsində təkcə ehtiyatlı deyil, açıq fikir də səsləndirdiyini söyləmək mümkündür. Bu fikir onun nə üçün ortaya atıldığını aydın şəkildə göstərir. Ambartsumyan azərbaycanlılarla ermənilər arasında dostluğun tərəfdarı olduğunu, lakin “güclünün zəiflə səmimi dostluq edə biləcəyinə” inanmadığını bildirib.

Qeyd edək ki, Paşinyan bu günlərdə Ermənistanın heç vaxt Azərbaycandan və Türkiyədən hərbi planda güclü ola bilməyəcəyini diqqətə çatdırmışdı. Yəni, baş nazirin rasional mövqe tutduğu məlumdur. Görəsən, Ambartsumyan və onun kimilər güclü olmaq, daha doğrusu, zəif olmamaq dedikdə nəyi nəzərdə tuturlar? Axı erməni varlığı tarixin bütün dövrlərində türklərdən zəif olub. Ancaq buna görə əzilməyib. Yalnız güclüyə qarşı baş qaldıranda, təxribat törədəndə payını alıb ki, bunda da təbii qanunauyğunluq var.

Digər tərəfdən, müstəqillik illərində Ermənistan güclü idimi? Bəlkə Azərbaycan torpaqlarını işğalı ölkənin qüdrətindən irəli gəlmişdi? Əlbəttə ki, belə deyildi. Həmin vaxt ön planda Moskvanın İrəvana dəstəyi dayanmışdı. Ambartsumyanlar isə faktiki olaraq həmin dəstəyin təbliğatını aparırlar. Onların nəzərə almadıqları güclü Rusiyanın zəif Ermənistanı heç vaxt özünə dost bilməməsi, yalnız vasitə qismində görməsidir. Güman edirik, indi erməni xalqı bunu daha yaxşı anlayır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Brüsseldə milyardlıq “üsyan”

**(əvvəli 1-ci səhifədə)**

Bu, sadəcə növbəti büdcə müzakirəsi sayılmaz, həm də təxminən 1,8 trilyon avroluq nəhəng maliyyə portfelinin taleyi üzərindən gedən dərin mübahisədir. Parlamentin tələbləri yerinə yetirilməyəcəyi təqdirdə 2028–2034-cü illər üçün nəzərdə tutulan büdcənin ən mühüm hissəsini rədd etmək hədəsi Brüsseldəki güc balansını kökündən dəyişə biləcək ciddi siyasi addımdır.

Siyasi qarşıdurmanın mərkəzində Avropa Komissiyasının iyul ayında təqdim etdiyi və "milli planlar" adlandırdığı, lakin özündə dərin idarəçilik transformasiyasını ehtiva edən təklif dayanır. Komissiyanın irəli sürdüyü modelə əsasən, fermerlər, regionlar üçün nəzərdə tutulan və ümumi Aİ büdcəsinin təxminən yarısını təşkil edən yüzlərlə milyard avroluq vəsaitlər, artıq birbaşa regionlara və ya xüsusi proqramlara yönəldilməyəcək. Əvəzində, pullar birgə fondlara toplanaraq Aİ-yə üzv 27 ölkənin mərkəzi hökumətləri tərəfindən idarə olunacaq. Komissiya iddia edir ki, təklif olunan model hökumətlərə Aİ vəsaitlərini milli ehtiyaclarına, prioritetlərinə uyğun şəkildə xərcləməyə daha çox çeviklik verəcək və ayrılan maliyyə vəsaitləri ilə aparılması tələb olunan iqtisadi islahatlar arasında daha güclü, daha şəffaf əlaqə formalaşdıracaq.



Lakin Avroparlamentin dörd aparıcı qrupu bu təklifin arxasında tamamilə fərqli və təhlükəli tendensiya görür. Səlahiyyətlərin Brüsseldən və regionlardan alınaraq milli paytaxtlara, yəni mərkəzi hökumətlərə ötürülməsi. Deputatların qənaətinə görə, plan Aİ-nin onilliklər boyu formalaşmış təməl prinsiplərindən birinə – subsidiarlıq prinsipinə (səlahiyyətlərin mümkün qədər vətəndaşa ən yaxın səviyyədə həll edilməsi) və regionalizmə ağır zərbə vurur.

Hələ yekunlaşdırılmaqda olan layihədə narahatlıq kəskin dillə ifadə olunur: “Hazırkı (milli planlar) təklif bizim əsas tələblərimizi nəzərə almadığı üçün danışıqlar üçün baza kimi qəbul edilə bilməz. Biz Avropa Komissiyasının təklifinə ediləcək dəyişikliklərdə əsas tələblərimizin mənalı şəkildə əksini tapacağına və bunun Avropa Parlamenti ilə danışıqların irəliləməsinə imkan yaradacağına ümid edirik”. Bu, diplomatik dildə səslənən, əslində, dərin etimadsızlığı və kompromisə yer qalmadığını göstərən bəyanatdır. Məktubun məqsədi bir neçə həftədir faktiki olaraq, dalana dirənmiş danışıqlardan sonra Avropa Komissiyasına güzəştlərə getməsi üçün təzyiqi son həddə çatdırmaqdır. Əgər 12 noyabr tarixinə qədər razılaşma əldə olunmasa, dörd siyasi qrup həmin gün keçiriləcək plenar iclasda büdcənin “milli planlar” bölməsinin tamamilə rədd edilməsi barədə qətnamə təqdim etmək niyyətindədir.

Qarşıdurmanın kökləri daha dərinə gedir. Siyasi qrupların ən mühüm tələblərindən biri Komissiyanın kənd yerlərinin inkişafı və Aİ-nin bütün regionları üçün ayrıca hədəflənmiş maliyyə vəsaiti ayırmasıdır. Bu, hazırkı büdcə təklifində nəzərdə tutulmayıb və bütün vəsaitlərin vahid "milli zərf"ə yığılması prinsipinə ziddir. Bundan əlavə, Avropa Parlamentinin üzvləri Komissiyanın təklif etdiyi “islahatlar qarşılığında maliyyə” modelinin yenidən köklü şəkildə nəzərdən keçirilməsini tələb edirlər. Onların fikrincə, bu model Aİ vəsaitlərinin necə xərclənməsi ilə bağlı qərarvermə prosesini qeyri-şəffaf edir və Avropa Parlamentini – Avropa vətəndaşlarının yeganə birbaşa seçdiyi orqanı prosesdən kənarda qoyaraq “daxili demokratik defisit” yaradır. Parlament yeddiillik dövr ərzində Aİ-nin ictimai vəsaitlərinin necə bölüşdürüləcəyinə dair qərarvermə və sonrakı nəzarət səlahiyyətlərinin əhəmiyyətli dərəcədə artırılmasını istəyir.

Bu ay siyasi qruplar artıq Aİ-nin uzunmüddətli büdcəsinin, yəni Çoxillik Maliyyə Çərçivəsinin (MFF) arxitekturası barədə geniş müzakirəni 12 noyabrda keçiriləcək plenar iclasın gündəliyinə daxil etmək barədə razılığa gəliblər. Həmin tarix həm də Parlament və Komissiya üçün “milli planlar”la bağlı prinsipial dəyişikliklər barədə razılığa gəlmək üçün qeyri-rəsmi son tarix hesab olunur. Sosialistlər və liberallar artıq Aİ büdcə təklifini rədd etməyə hazır olduqlarını açıq şəkildə bəyan etmişdilər. Lakin bu cəbhədə həlledici addım Ursula Fon der Lyayenin özünün mənsub olduğu Avropa Xalq Partiyasının (EPP) da bu mövqeyə qoşulması oldu. Partiya hələlik rəsmi şəkildə mövqeni təsdiqləməsə də EPP-nin bir çox nüfuzlu deputatları son həftələrdə büdcə layihəsinə qarşı kəskin çıxışlar edərə, regionların hüquqlarının qorunmasının partiyanın "qırmızı xətti" olduğunu bildiriblər. Bu, vəziyyəti Fon der Lyayen üçün xüsusilə çətinləşdirir, çünki o, artıq öz siyasi ailəsinin də tam dəstəyinə arxalana bilmir.

Parlamentdə proses cərəyan edərkən pərdə arxasında Aİ-yə üzv dövlətlər də Komissiyanın büdcə təklifi üzərində öz çətin və mürəkkəb müzakirələrini aparırlar. Bu danışıqların 2027-ci ilin əvvəlinə qədər davam edəcəyi gözlənilir. Daha sonra Parlament milli paytaxtlarla birlikdə yekun xərcləmə planını müzakirə edəcək və 2028-ci ildə qüvvəyə minməsi nəzərdə tutulan büdcə üzərində son səsverməni aparacaq. Lakin Parlamentin indidən bu qədər sərt mövqe tutması bütün prosesi iflic etmək potensialına malikdir. Əgər Parlament Komissiyanı geri çəkilməyə məcbur edə bilsə, proses onun Aİ-nin idarəçiliyindəki rolunu və nüfuzunu əhəmiyyətli dərəcədə gücləndirəcək. Yox, əgər Komissiya və üzv dövlətlər Parlamentin iradəsinə qarşı gedərək bildiklərini etməyə çalışsalar, Avropa İttifaqı tarixində dərin institusional böhranlardan biri ilə üzləşə bilər.

Büdcə müharibəsi, sadəcə rəqəmlər və paraqraflar haqqında deyil. Bu, Avropa İttifaqının gələcək inkişaf modelinin necə olacağı barədə mühüm suala cavab axtarışıdır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*

**Sultan ZAHİDOV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**



Ondan başlayaq ki, bu ilin iyul ayında Avropa İttifaqı Komissiyası 2028-2034-cü illər üçün ittifaqın yeni büdcə layihəsi təklifini irəli sürdü və bu çoxillik maliyyə çərçivəsi adlanır. Hazırkı büdcə 2027-ci ildə bitəcək və bundan sonra növbəti 7 illik büdcə layihəsi artıq işlək olmalıdır və onun təklifi Komissiya tərəfindən Aİ-də edildi və hazırda bu təklif ətrafında Avropa İttifaqında ciddi müzakirələr getməkdədir.

Yeni büdcə layihəsi təklifinin əsas elementləri nədən ibarətdir? Birincisi, bu layihə Aİ-nin gəlirliyini artırmaq məqsədi güdür və yeni gəlir mexanizmləri, o cümlədən karbon gəliri, eyni zamanda, böyük şirkətlərdən, plastik məhsullardan vergilərin artırılması, karbondan vergilərin tutulması kimi təkliflər irəli sürür. İkincisi, layihədə milli planlar bölməsi var ki, bu proqrama görə artıq Aİ əvvəlki kimi üzv ölkələrin regionlarına spesifik proqramlar fəsiləsində birbaşa maliyyə ayırmayacaq. Onun yerinə maliyyə vəsaitləri milli zərflər formasında üzv ölkələrin hökumətləri tərəfindən idarə olunacaq fondlara ayrılacaq. Eyni zamanda, burada islahatlar qarşılığında maliyyə adlanan bir bölmə də var ki, buna əsasən Aİ ilə üzv ölkələrə ayrılan maliyyə həmin ölkələrin həyata keçirdiyi islahatlar qarşısında veriləcəkdir.

Dörd qrupun istəkləri nədən ibarətdir? İlk növbədə onlar gəlirlik məsələsinə skeptik yanaşır, düşünürlər ki, yeni büdcə layihəsində təklif olunan gəlir mexanizmləri effektiv olmayacaq və əslində, inflyasiyanı nəzərə alsaq, bu, Aİ-nin 2028-2034-cü il ərəfəsində iqtisadi gəlir cəhətdən böyüməsinə bir o qədər töhfə verməyəcək. Bu məsələdə narazılıq var. İkinci narazılıq mənbəyi büdcə layihəsində nəzərdə tutulan Milli Planlar hissəsidir ki, bu planlara görə nəzərdə tutulmuş 1,8 trilyon avroluq büdcənin təxminən yarısı əvvəlki kimi regionlara və fermerlərə birbaşa deyil, hökumətlərin nəzarəti altında olan fondlara ayrılacaq.

Yeni qaydaya görə artıq regionlara ayrılmış maliyyə vəsaitləri də hökumətlərin nəzarətində olacaq ki, bu da regionların hökumətdən asılılığını daha da artırmış olacaq. Bu zaman Aİ-nin təməli federalizm prinsipinə ziddiyyət təşkil edəcək.

Bu dörd qrupdan ikisi – solçular və liberallar – ümumiyyətlə, yeni büdcə layihəsinə qarşıdır. Digər ikisi isə yeni büdcə layihəsinin tərkibinə daxil olan milli planlar ideyasına qarşı çıxdığından, noyabrın 12-də bununla bağlı qətnamə rəli sürəcəklərini bildiriblər. Əgər komissiya ilə dörd qrup nümayəndələri arasında razılıq olmasa, o zaman dörd qrupun nümayəndələri Aİ-nin yeni büdcə layihəsini müzakirəyə çıxaracaq. O zaman milli planların ləğv olunmasını tələb edən qətnamə layihəsini irəli sürəcəklər ki, belə olan halda – nəzərə alsaq ki, Avropa Xalq Partiyasının Avropa Parlamentində səsləri çoxdur – qətnamə layihəsi qəbul edilə və milli planlar bölməsi büdcədən çıxarıla bilər.

# Ədalət, ləyaqət və fəxarət ideallarının bərpası

## *Bu dəyərlər Qarabağda gerçəkləşdirilən "Böyük Qayıdış" proqramının özülünü təşkil edir*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəngilanın Məmmədbəyli və Ağalı kəndlərinin sakinlərinə mənzillərin açarlarını təqdim edərkən səsləndirdiyi fikirlər Azərbaycanın postmünaqişə dövründə qurduğu yeni dövlət-fəlsəfi konsepsiyanın ideoloji ifadəsidir. Prezidentin sözlərində "Böyük Qayıdış" tarixi ədalətin bərpası, milli ləyaqətin dirçəldilməsi və dövlətin sosial məsuliyyət modelinin ən real göstəricisidir.**







"Böyük Qayıdış" anlayışı Azərbaycanın postmünaqişə dövründə yeni dövlət-fəlsəfi və ideoloji platforma kimi formalaşıb. Bu konsepsiya üç əsas istiqaməti birləşdirir – tarixi ədalətin bərpası, milli kimliyin yenidən qurulması və modern inkişafın yeni paradiqması. Prezident İlham Əliyevin Zəngilanda səsləndirdiyi fikirlər göstərir ki, "Böyük Qayıdış" Azərbaycan dövlətçiliyinin yeni mərhələsinin məzmun konsepsiyasıdır.

Əvvəla, bu ideya postmünaqişə ədalətinin reallaşması baxımından mühüm əhəmiyyət daşıyır. Uzun illər işğal altında qalan torpaqların azad edilməsi ilə bərabər, Azərbaycan həmin ərazilərdə sosial ədalətin də bərpasını qarşısına məqsəd qoydu. Burada məqsəd sadəcə torpaqları azad etmək deyil, insanı o torpağa, yəni həyatın mənəvi və mədəni məkanına qaytarmaqdır. Prezidentin "hər bir evin açarı – hər bir ailənin gələcəyi deməkdir" fikri bu konsepsiyanın mərkəzində insan amilinin dayandığını göstərir. İkincisi, "Böyük Qayıdış" milli ləyaqət və dövlətin məsuliyyət fəlsəfəsi üzərində qurulub.

Qayıdış prosesi həm sosial-iqtisadi, həm də mənəvi-siyasi ölçülərdə həyata keçirilir. Dövlətin vətəndaşa qayğısı burada ən yüksək səviyyədə təcəssüm olunur: şəhid ailələrinə mənzillərin verilməsi, müasir infrastrukturun yaradılması, təhlükəsizlik və rifahın təmin edilməsi – bütün bunlar sosial məsuliyyətin siyasi legitimliklə birləşdiyi yeni modelin təzahürüdür. Üçüncüsü, bu ideya modern dövlət quruculuğunun laboratoriyası kimi çıxış edir. İşğaldan azad olunmuş kəndlərdə, şəhərlərdə həyata keçirilən "ağıllı kənd" və "yaşıl enerji" layihələri göstərir ki, Azərbaycan bərpa prosesini strateji yenilənmə platforması kimi dəyərləndirir.

***

Siyasi baxımdan "Böyük Qayıdış" Azərbaycanın suveren inkişaf modelinin geosiyasi ifadəsidir. İşğaldan azad edilmiş torpaqlarda həyata keçirilən siyasət ölkənin müstəqil qərarvermə qabiliyyətini, resurslardan rasional istifadə bacarığını və uzunmüddətli planlaşdırma mədəniyyətini nümayiş etdirir. Bütün bunlar Qərbin postmünaqişə idarəetmə təcrübələrindən fərqli, lokal-milli və mərkəzləşdirilmiş dövlət yanaşmasının uğurlu nümunəsidir. Nəhayət, "Böyük Qayıdış" Azərbaycanın dövlət ideologiyasının yeni mərhələsinin fəlsəfi kodu kimi çıxış edir. İdeologiyanın təməlində ədalət, sosial məsuliyyət və yenidənqurma dayanır. Prezident İlham Əliyevin liderliyi ilə formalaşan bu konsepsiya göstərir ki, Azərbaycan müharibədən sonra "sülh dövləti" mərhələsinə daxil olub – burada güc, humanizm və inkişaf arasında strateji tarazlıq qurulub.

Dövlət başçısının "Bu torpaqların sahibi bizik" fikri Azərbaycanın rəsmi ideologiyasının strateji mahiyyətini ifadə edən siyasi formuldur. Bu vurğu göstərir ki, Azərbaycan artıq müstəqil siyasət subyekti kimi öz milli maraqlarını real güc parametrləri üzərindən təmin edə bilir.

2020-ci il Vətən müharibəsindən sonra ölkənin qarşısında iki istiqamət dayanırdı: ya müharibənin dağıdıcı psixoloji və sosial nəticələrini aradan qaldırmaqla məhdudlaşmaq, ya da bu qələbəni yeni inkişaf mərhələsinin başlanğıcına çevirmək. Azərbaycan ikinci yolu seçdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət göstərdi ki, ölkə "postmüharibə travması" keçirmədi, əksinə, həmin dövr milli həmrəyliyin və strateji intellektin yüksəliş mərhələsinə çevrildi. "Postmünaqişə travması" siyasi elmlərdə və beynəlxalq münasibətlər nəzəriyyəsində müharibədən sonrakı dövrdə dövlətin və cəmiyyətin yaşadığı psixoloji, sosial və institusional zədələnmə sindromunu ifadə edir.

Bir çox ölkələrdə postmünaqişə dövrü uzun illər davam edən sosial parçalanma, iqtisadi durğunluq və siyasi qeyri-sabitliklə müşayiət olunur. Azərbaycan nümunəsində isə bu klassik model işləmədi. Bunun əsas səbəbi qələbənin xarakteridir: Azərbaycan müharibəni destruktiv məqsədlərlə deyil, ədaləti və beynəlxalq hüququ bərpa etmək üçün aparmışdı.

İkinci mühüm amil liderlikdir. İlham Əliyevin ardıcıl, prinsipial və uzaqgörən siyasəti nəticəsində cəmiyyət müharibədən sonra depressiya və qeyri-müəyyənlik deyil, özünəinam və dövlətin legitimliyinə güvən hissi yaşadı. Dövlətin postmünaqişə dövründə həyata keçirdiyi sürətli bərpa proqramları, qayıdış planlarının konkret icrası, şəhid ailələrinə və qazilərə diqqət, həmçinin informasiya və diplomatik müstəvilərdə fəal siyasət "travma"nı "dirçəliş enerjisi"nə çevirdi. Bundan başqa, Azərbaycan postmünaqişə dövrünü yalnız daxili stabilliklə deyil, regional strateji fəallıqla tamamladı. Müharibədən dərhal sonra başlayan infrastruktur bərpası, Zəngəzur dəhlizi, "ağıllı şəhər və kənd" layihələri, beynəlxalq tərəfdaşlarla yeni əməkdaşlıq mexanizmləri – bütün bunlar göstərdi ki, Azərbaycan bu mərhələni, geosiyasi transformasiya mərhələsi kimi dəyərləndirir.

***

Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işləri regionda yeni güc mərkəzinin formalaşmasını təmin edir. Zəngilan, Füzuli, Laçın, Kəlbəcər kimi rayonlarda infrastrukturun sıfırdan yaradılması dövlətin iqtisadi potensialının və idarəetmə resurslarının səviyyəsini göstərir.

Prezidentin çıxışı bu prosesin ideoloji konturlarını müəyyənləşdirir. Prezident İlham Əliyev ədalətin bərpası ilə milli reallığın uyğunlaşdırılmasından bəhs edir. "Ədalət inancı ilə reallığın vəhdəti" ifadəsi burada əsas fəlsəfi xətti təşkil edir. Azərbaycan 30 ilə yaxın davam edən işğal dövründə beynəlxalq hüquqa güvənirdi, lakin ədalətin təmin olunmadığını gördükcə, öz gücünə əsaslanan reallıq yaratdı və bu reallıq indi regionda yeni nizamın əsasını qoyur.

Prezidentin Zəngilanda səsləndirdiyi fikirlər bu ideologiyanın ən konkret ifadəsi kimi, həm tarixi ədalətin bərpasını, həm də dövlətin gələcəyə yönəlmiş strateji baxışını təcəssüm etdirir. İndi bu siyasət təkcə keçmişin ağrılarını sağaltmaq deyil, gələcəyin dayanıqlı inkişaf modelini qurmaq məqsədi daşıyır. Azərbaycanın "Böyük Qayıdış" konsepsiyası məhz buna görə regional inteqrasiyanın, sosial bərabərliyin və milli suverenliyin kəsişdiyi nöqtədə yeni bir siyasi keyfiyyət mərhələsi formalaşdırır.

Prezident İlham Əliyevin Zəngilanda çıxışında səsləndirdiyi "siz uzun illər – 30 il ərzində ağır şəraitdə köçkün, qaçqın həyatını yaşamısınız, mənəvi əzablar çəkmisiniz" sözləri siyasi məzmun baxımından xüsusi önəm daşıyır. Prezidentin bu fikirləri dövlət rəhbərinin sosial ədalət prinsiplərinə əsaslanan idarəetmə fəlsəfəsinin təsdiqidir. Burada Prezident fərdin taleyini, onun mənəvi ağrısını dövlət siyasətinin mərkəzinə gətirir.

Azərbaycanın köçkün siyasəti hələ 2000-ci illərin əvvəllərində strateji sosial xətt kimi formalaşmağa başlamışdı. Dövlət başçısının "Biz neçə şəhərcik saldıq, bəlkə də yüzə yaxın köçkün şəhərciyi. Çadır şəhərcikləri 2007-ci ildə ləğv olundu" sözləri həmin siyasətin konkret nəticələrini xatırladır. Azərbaycan bu yolla sosial sabitliyin və milli həmrəyliyin dayaqlarını qurdu. Qaçqın və məcburi köçkünlər üçün salınan yeni qəsəbələr, sosial təminat proqramları, təhsil və səhiyyə infrastrukturlarının yaradılması dövlətin insan mərkəzli siyasətinin real təzahürləri idi.

İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən "beş ilə bir dənə də çadır şəhərciyi qalmayacaq" demişdi və dörd ilə bu vədi yerinə yetirdi. Əslində, bu fakt Azərbaycan dövlətinin söz və əməl birliyinə əsaslanan idarəçilik modelini göstərir. "Böyük Qayıdış" proqramı məhz bu düşüncənin davamıdır. Əgər əvvəlki mərhələdə məqsəd köçkünün sosial şəraitini yaxşılaşdırmaq idisə, indi məqsəd onu doğma yurduna qaytarmaq, yəni vətəndaşın ləyaqətini və kimliyini tam bərpa etməkdir. Zəngilanın Ağalı və Məmmədbəyli kəndlərində mənzillərin açarlarının təqdim edilməsi bu prosesin kulminasiyasıdır. Hazırkı mərhələ siyasi və mənəvi reabilitasiya prosesidir.

Azərbaycanın "Böyük Qayıdış" siyasəti sosial dövlət anlayışına yeni məna qazandırır. Əgər klassik mənada sosial dövlət iqtisadi təminatla ölçülürdüsə, Azərbaycan modeli bunu mənəvi ədalətin bərpası ilə tamamlayır. Burada sosial məsuliyyət vətəndaşın tarixi yaddaşına, torpağa bağlılıq hissinə, milli kimliyinə qovuşmasıdır. Prezidentin sözləri ilə desək, "ədalətə inanmaq və onu təmin etmək lazımdır. Bax, bizim xalqımız həm ədalətə



inanıb, həm də onu təmin edib". Dövlətin sosial vəzifəsi yalnız vətəndaşın ehtiyacını ödəmək deyil, onun ədalət hissini bərpa etməkdir ki, bu da dövlətin mənəvi və siyasi missiyasıdır.

Beləliklə, Prezident İlham Əliyevin Zəngilanda səsləndirdiyi fikirlər göstərir ki, "Böyük Qayıdış" ədalət, ləyaqət və dövlətçilik ideallarının bərpası ilə yeni Azərbaycan dövrünün başlanğıcıdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan və Özbəkistanın çoxşaxəli əməkdaşlıq modeli

## *Bakı–Daşkənd əlaqələri ən yüksək səviyyəyə yüksəldilir*

**2025-ci ilin son rübü hər iki ölkə üçün strateji həlledici məqamdır. Bu dönəmdə regionun enerjili geosiyasi və iqtisadi mühiti, həmçinin yeni nəsil nəqliyyat və infrastruktur logistikaları çərçivəsində formalaşan əlaqələr ön plandadır. Belə bir fonda, Ceyhun Bayramovun oktyabrın 30-da Səmərqəndə işgüzar səfəri və həmkarı Baxtiyor Saidovla görüşü müstəsna əhəmiyyət daşıyır.**



Nazirlərin görüşündə vurğulanan əsas məsələ Azərbaycan və Özbəkistan arasında strateji müttəfiqlik səviyyəsində əlaqələrin dinamik inkişafı olub. Gündəlikdə iqtisadiyyat, ticarət, investisiyalar, nəqliyyat, energetika, mədəniyyət və humanitar sahələr yer alıb ki, bu da çoxşaxəli əməkdaşlıq perspektivini nümayiş etdirir. Həmçinin beynəlxalq və regional təşkilatlar çərçivəsində birgə fəaliyyətə dair razılaşmalar gündəmdə olub; Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı kimi platformalarda qarşılıqlı dəstək və koordinasiya vurğulanıb. Bütün bu amillər onu göstərir ki, Azərbaycan – Özbəkistan münasibətləri real siyasi və iqtisadi məzmun qazanır.

Cənubi Qafqaz və Mərkəzi Asiya qovşağında əməkdaşlıq dinamikası son illər ciddi şəkildə dəyişir. Azərbaycan üçün logistik keçidlər, nəqliyyat şəbəkələri və regional enerji layihələri birinci dərəcəli hədəflərdir. Özbəkistan üçün isə rəsmi Bakı ilə əlaqələr Türk dünyası çərçivəsində mövqelərini möhkəmləndirmək, iqtisadi investisiyaları artırmaq və mədəni-tarixi əlaqələri canlandırmaq baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan üçün Orta Dəhliz təşəbbüsü – Bakı–Tbilisi–Qars xətti, Mərkəzi Asiyaya keçid və Avropa istiqamətində tranzit əlaqələrinin möhkəmləndirilməsi baxımından prioritetdir. Özbəkistanla nəqliyyat sahəsində əməkdaşlıq həm iqtisadi, həm də strateji əhəmiyyət daşıyır. Bu baxımdan görüşdə nəqliyyatın əsas mövzulardan biri kimi qeyd olunması təsadüfi deyil.

Energetika və mədəni-humanitar əməkdaşlıq da gündəliyin önəmli istiqamətləri olub. Azərbaycan üçün enerji marşrutlarının şaxələndirilməsi, Özbəkistan üçün isə ortaq mədəni və tarixi dəyərlərin diplomatik kapitala çevrilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, həm iki ölkə arasında qarşılıqlı etimadı gücləndirir, həm də türk dünyasının inteqrasiya proseslərinə yeni dinamika gətirir.

Bu il Azərbaycan–Özbəkistan diplomatik münasibətlərinin 30 illiyi qeyd edilib. Bu, iki ölkə arasında əlaqələrin daha sistemli və institusional müstəviyə keçidini göstərir. Azərbaycan və Özbəkistan münasibətləri heç vaxt yalnız bugünkü geosiyasi maraqlarla izah olunmayıb. Bu bağların kökü ortaq türk kimliyinə, dil və mədəniyyətinə, həm də əsrlər boyu davam edən mübarizə və birgə yaddaşa dayanır. Hər iki xalq Türküstanın və qədim İpək yolunun ortaq irsini daşıyır. Nizami Gəncəvi ilə Əlişir Nəvai, Füzuli ilə Bədrəddin Hilal, Mirzə Uluqbəy və Şah İsmayıl Xətai kimi şəxsiyyətlər bu mənəvi birliyin mədəni simvollarıdır. Tarixi yaddaş bu günün siyasətindən çox-çox dərin köklərlə iki xalqı birləşdirir.

Azərbaycanla Özbəkistan arasında müasir əməkdaşlığın hüquqi əsaslarını 2024-cü il avqustun 23-də Daşkənddə imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" möhkəmləndirdi. Həmin sənəd iki ölkə arasında münasibətləri tərəfdaşlıqdan strateji müttəfiqlik səviyyəsinə yüksəltdi. Müqavilə siyasi, iqtisadi, müdafiə, təhlükəsizlik, humanitar və mədəni istiqamətləri əhatə edir. Bəli, bu, real ittifaq modelidir.

Azərbaycanın azad edilmiş ərazilərində aparılan bərpa işlərinə Özbəkistanın qatılması onun qardaşlıq münasibətlərinə sadiqliyinin parlaq göstəricisidir. Füzuli şəhərində Özbəkistan tərəfindən inşa edilmiş müasir məktəb kompleksi siyasi həmrəyliyin rəmzidir. Prezident Şavkat Mirziyoyevin Prezident İlham Əliyevlə keçirdiyi görüşlərdə Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu qətiyyətlə bildirməsi liderlər arasında sarsılmaz birliyin və mükəmməl əlaqələrin göstəricisidir.

İyulun 1-də Daşkənddə keçirilən "Yeni üfüqlərə doğru: Dialoqdan birgə fəaliyyətə" adlı Birinci Azərbaycan–Özbəkistan Parlamentlərarası Forumu əlaqələrin yeni mərhələsini formalaşdırdı. Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakı ilə baş tutan Forumda qəbul edilən qərarlar göstərdi ki, artıq əməkdaşlıq hökumətlərarası mexanizmlərlə məhdudlaşmır. İndi turizm, kənd təsərrüfatı, təhsil, mədəniyyət və texnologiyalar sahəsində konkret layihələr reallaşma mərhələsindədir.

Azərbaycan və Özbəkistan təkcə ikitərəfli müstəvidə deyil, həm də Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində strateji həmrəyliyin aparıcı sütunları kimi çıxış edirlər. Özbəkistanın təşkilata tamhüquqlu üzv olması ilə Türk dünyasında inteqrasiya prosesi yeni nəfəs aldı. Bakı və Daşkənd TDT-nin nəqliyyat, energetika və mədəni əlaqələrinin genişləndirilməsində fəal rol oynayır. Xüsusilə Orta Dəhliz layihəsinin inkişafı, Mərkəzi Asiyadan Avropaya qədər uzanan yeni iqtisadi arteriyanın formalaşmasına imkan yaradır.

Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasında qarşılıqlı etimada söykənən münasibətlər dövlətlərarası əməkdaşlığa xüsusi sinergiya qazandırır. Bu münasibətlər həm siyasi qərarlarda, həm də ictimai proseslərdə özünü göstərir.

İki ölkə arasında əlaqələrin möhtəşəm nümunəsi kimi iyulun 2-də Prezident İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Bakıda səfirliyin yeni binasının açılmasını qeyd etmək olar. Sözsüz ki, müasir tələblərə cavab verən yeni kompleks iki ölkə arasında çoxvektorlu strateji tərəfdaşlıq münasibətlərinin və müttəfiqliyin gələcək inkişafına müsbət impulslar qazandıracaq.

Azərbaycan–Özbəkistan münasibətləri bu gün konkret iqtisadi, siyasi və mənəvi təməllərə əsaslanan çoxşaxəli əməkdaşlıq sistemidir. Tarixi köklər, ortaq türk kimliyi, liderlərin uzaqgörənliyi və xalqların bir-birinə qarşılıqlı sevgisi bu modelin sütunlarını təşkil edir. Bu, Türk dünyasının gələcəyinə yönəlmiş strateji mesajdır.

***Tacir SADIQOV***
***XQ***

# Françayzinq modeli – səmərəli biznes aləti, yeni düşüncə tərzi

**Dünən Bakıda Avrasiya Françayzinq Forumu keçirilib. Toplantıda regionun müxtəlif ölkələrindən olan dövlət rəsmiləri, sahibkarlar, investorlar və françayzinq sahəsinin nümayəndələri iştirak ediblər.**




Açılış mərasimində Azərbaycan Françayzinq Assosiasiyası İdarə Heyətinin sədri Camid Mövsümov ölkəmizdə françayzinq üçün güzəştli kredit modelinin tətbiqinin planlaşdırıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, bu, İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Biznes İnkişaf Fondu ilə əldə olunmuş razılaşmaya əsasən, 2026-cı ildən françayzinqin təşviqi üçün tətbiq ediləcək və ölkəmizdə françayzinq fəaliyyətinin genişlənməsinə, sahibkarlığın inkişafına və yeni layihələrin reallaşmasına böyük töhfə verəcək.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov bildirib ki, françayzinq modeli KOB subyektləri üçün təkcə biznes aləti deyil, həm də yeni düşüncə tərzidir. Onun sözlərinə görə, françayzinq sahibkarları daha sistemli, planlı və beynəlxalq təcrübəyə əsaslanan fəaliyyətə sövq edir: “Bu mexanizmin daha geniş tətbiqi ölkəmizdə həm yeni iş yerlərinin açılmasına, həm də yerli brendlərin beynəlxalq arenaya çıxmasına şərait yaradacaq. KOBİA olaraq biz françayzinqin inkişafını prioritet istiqamətlərdən biri kimi görürük”.

Qazaxıstan ticarət nazirinin müavini Aycan Bicanova isə qeyd edib ki, bu ilin 8 ayında iki ölkə arasındakı qarşılıqlı ticarət, təxminən, 350 milyon ABŞ dolları təşkil edib: “Dövlət başçıları qarşılıqlı ticarət dövriyyəsini 1 milyard dollara çatdırmaq üzrə ambisiyalı vəzifə qoyublar. Hesab edirəm ki, bu vəzifələr bizim üçün əlçatandır. Françayzinq tərəfdaşlıqlarının tərkibində birgə türkdilli dövlətlərin vahid brendi altında inkişaf üçün böyük potensial mövcuddur”. Sabit ticarət və logistika əlaqələrinin təmin olunmasının vacibliyini vurğulayan nazir müavini bu baxımdan Orta Dəhlizin əhəmiyyətini diqqətə çatdırıb.

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev bildirib ki, Azərbaycanda yerli brendlərin françayzinq layihələrinin icrasına başlanacaq. Onun sözlərinə görə, AZPROMO milli məhsul və xidmətlərin ixracının təşviqində fəal iştirak edir, brendlərin beynəlxalq bazarlara çıxışına xüsusi diqqət ayırır. Qurum rəhbəri “Azərbaycan Françayzinq Assosiasiyası” və digər aidiyyəti qurumlarla bu istiqamətdə sıx əməkdaşlıq həyata keçirildiyini diqqətə çatdırıb.

Türk Dünyası Həmrəylik və Yardımlaşma Dərnəyinin sədri Halit Kanak isə bildirib ki, Türk Dövlətləri Təşkilatı yaradıldıqdan sonra üzv ölkələr arasında ticarət artmağa başlayıb və 2024-cü ildə 53 milyard dollar səviyyəsinə çatıb. Bunu qənaətbəxş hesab etməyən türkiyəli qonaq deyib: “Biz müstəqil türk dövlətləri olaraq düşünürük ki, 180 milyonluq əhalimizlə yanaşı, Rusiya, Çin, Əfqanıstan, Pakistan, İran, Balkan ölkələri, Orta Şərq, Şərqi Avropa, Şimali Afrika, Cənubi və Cənub-Şərqi Asiya kimi regionlarda yaşayan soydaşlarımızla birlikdə 350 milyon əhalinin daxil olacağı daxili ticarətimiz ən azı 400 milyard dollar olmalıdır. Biz bu hədəflərə çatmaq üçün imkanın mövcud olduğunu hesab edirik”.

Forumda Milli Məclisin deputatı Əlibala Məhərrəmzadə, Qazaxıstan ticarət nazirinin müavini Aycan Bicanova, “Gaztrade” şirkətinin icraçı direktoru Aynur Amirbekova və digərləri çıxış ediblər.

Rəsmi açılışdan sonra “AzInTelecom” şirkətinin rəqəmsal marketinq bölməsinin rəhbəri Nərgiz Abdulhüseynova “Biznes prosesini SİMA ilə rəqəmsallaşdır” mövzusunda təqdimatla çıxış edib.

Forum çərçivəsində “Françayzinqin qlobal trendləri və Avrasiyada yeni imkanlar”, “Pərakəndə ticarət və qida sənayesində françayzinq”, “Rəqəmsallaşma və texnologiyanın françayzinqə təsiri” mövzularında üç panel müzakirəsi də keçirilib. Panellərdə françayzinq sektorunun inkişaf perspektivləri, rəqəmsal transformasiya, e-ticarət, süni intellekt və texnologiyanın biznes modellərinə təsiri müzakirə olunub. Sonda B2B görüşlər keçirilib, yekun çıxışlar dinlənilib və iştirakçılara sertifikatlar təqdim olunub.

Qeyd edək ki, françayzinq bir şirkətin (françayzer) öz brendini, texnologiyasını və biznes modelini müəyyən şərtlərlə başqa bir şirkətə (françayzi) satması deməkdir. Bu, françayzi tərəfindən françayzerə ödənilən haqq (royalti) əsasında həyata keçirilir və françayzi bu françayzerin brendi altında fəaliyyət göstərir. Hazırda ölkəmizdə, təqribən, 300 françayzinq nöqtəsi mövcuddur. Françayzinq sahəsi üzrə Azərbaycanda ümumi brendlərin sayı 20, illik dövriyyəsi 0,03 milyard ABŞ dolları, ümumi daxili məhsuldakı payı isə təqribən, 0,1 faiz səviyyəsindədir. Türkiyədə 43 mindən çox, Qazaxıstanda 4 min, Özbəkistanda isə 2,5 min françayzinq nöqtəsi mövcuddur. Ümumi brendlərin sayı isə Türkiyədə, təqribən, 1,3 min, Qazaxıstanda 150, Özbəkistanda 120 vahiddir.

# Ağdaşda Aqrar Biznes Festivalı



**Mərkəzi Aran iqtisadi rayonuna daxil olan Ağdaşın kənd təsərrüfatı və aqroturizm potensialı olduqca yüksəkdir. Son illər ölkəmizdə aqrar sektorun və turizmin inkişafına göstərilən dövlət dəstəyi sözügedən rayonda da aydın hiss olunur.**

Bölgənin kənd təsərrüfatı potensialının və xüsusilə meyvəçiliyin inkişafına dəstək məqsədilə Heyva festivalı və Aqrar Biznes Festivalı keçirilib. Ağdaş Rayon İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən festivalın əsas məqsədi regionun aqroturizm imkanlarının genişləndirilməsi, fermer və sahibkarlar arasında birbaşa əməkdaşlıq mühitinin yaradılması, eləcə də yerli kənd təsərrüfatı məhsullarının tanıdılması və satış imkanlarının artırılmasından ibarət olub.

Festivalda rayonun son illər aqrar sahədə əldə etdiyi nailiyyətlər, xüsusilə meyvəçilik istiqamətində görülən işlər barədə məlumat verilib. Ziyarətçilərə bölgədə istehsal olunan ekoloji təmiz məhsullar – təbii şirələr, quru meyvələr və digər ərzaq nümunələri təqdim olunub. Burada nümayiş etdirilən kənd təsərrüfatı, sənətkarlıq, milli mətbəx, sənaye məhsulları və əl işləri stendləri xüsusi maraqla qarşılanıb.

Açılış mərasimində çıxış edən Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Hüseynzadə bildirib ki, dövlətin aqrar sektora göstərdiyi davamlı dəstək və fermerlərin artan fəallığı sayəsində son illərdə rayonda kənd təsərrüfatının, xüsusilə də meyvəçiliyin inkişafında mühüm irəliləyişlər əldə olunub. Qeyd olunub ki, aqrar sahədə tətbiq olunan müasir yanaşmalar, texnologiyalar və innovativ təşəbbüslər nəticəsində məhsuldarlıq artır, kənd yerlərində məşğulluq genişlənir və yerli istehsal ixrac potensialı qazanır.

Sonra Kənd Təsərrüfatı Nazirliyi Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov çıxış edib. Aqrar İnnovasiya Mərkəzi və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə bu ilin ötən dövründə 11 bölgədə məhsul festivalının keçirildiyini xatırladan direktorun sözlərinə görə, bu mərasimlərin əsas məqsədi aqrar turizm potensialının artırılması, klasterlərin formalaşması və yerli məhsulların tanıdılmasıdır. O deyib ki, festivalların keçirildiyi bölgələrdə istehsal olunmuş məhsullar “Caspian Agro 2026” beynəlxalq sərgisində stendlərdə nümayiş etdiriləcək.

Diqqətə çatdırılıb ki, festivallar çərçivəsində toxum sərgi-satış yarmarkası da təşkil olunub. Bu təşəbbüsün məqsədi yerli toxumçuluğun inkişafına dəstək vermək, fermerlərin iqlim şəraitinə uyğun, sertifikatlı və keyfiyyətli toxumlara çıxış imkanlarını artırmaqdır.

Yarmarka çərçivəsində yerli toxum istehsalçıları ilə birbaşa əlaqə yaradılıb, fermerlər üçün yeni əməkdaşlıq imkanları müzakirə olunub. Burada Kənd Təsərrüfatı Nazirliyi tərəfindən vahid stend altında ölkə üzrə sertifikatlaşdırılmış və rayonlaşdırılmış toxum nümunələri təqdim olunub. Tədbir zamanı toxum, gübrə, yeni kənd təsərrüfatı texnologiyaları, müasir suvarma sistemləri sərgilənib, innovativ aqrotexniki həllər və torpaq-iqlim xüsusiyyətlərinə uyğun sortların seçimi barədə praktiki məlumatlar təqdim edilib. Festival həm də Ağdaş rayonunun aqrar potensialını və aqroturizm imkanlarını nümayiş etdirmək baxımından mühüm platformaya çevrilib.

Qeyd edək ki, cari ilin ötən dövrü ərzində ölkənin müxtəlif regionlarında — Samuxda “Ərik”, Şəmkirdə “Tərəvəz”, Kürdəmirdə “Bostan”, Xaçmazda “Şaftalı”, Masallıda “Düyü və çəltik” və digər festivallar da daxil olmaqla, ümumilikdə, 11 məhsul festivalı keçirilib.



# Suveren Fondların Beynəlxalq Forumunun Əbu-Dabi toplantısı

**Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Suveren Fondların Beynəlxalq Forumunun təşkilatçılığı ilə “Transformasiya dövründə dayanıqlılığın formalaşdırılması”na həsr olunmuş illik iclas keçirilib. Toplantıda ölkəmizi Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru İsrafil Məmmədovun rəhbərlik etdiyi nümayəndə təmsil edib.**



Qeyd edək ki, sözügedən forum idarəetməsində olan məcmu aktivlərin dəyəri 10 trilyon ABŞ dollarından çox olan, dünyanın aparıcı suveren sərvət fondlarını bir araya gətirən yeganə beynəlxalq platformadır. Forum Birləşmiş Ərəb Əmirliklərinin vəliəhdi Şeyx Xalid bin Məhəmməd bin Zayidin himayəsi altında, Əbu-Dabi İnvestisiya Təşkilatı, Mubadala İnvestisiya Şirkəti və digər strateji tərəfdaş qurumların ev sahibliyi ilə keçirilir.

Forum qlobal iqtisadi və geosiyasi dəyişikliklərin fonunda suveren fondların uzunmüddətli dəyər yaradan investisiya strategiyalarının müzakirəsinə, dayanıqlı kapital qoyuluşu, texnoloji transformasiya və alternativ aktivlərin inkişafı kimi mövzuların müzakirəsinə həsr olunub. Məclis, həmçinin Santyaqo Prinsiplərinin tətbiqinə dair beynəlxalq standartların yeni çağırışlara uyğun təkmilləşdirilməsi və suveren fondların şəffaflıq, hesabatlılıq və məsuliyyətli idarəetmə prinsiplərinə sadiqliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

İllik iclas çərçivəsində keçirilən İcraçı Direktorların Forumunda İ.Məmmədov çıxış edərək suveren sərvət fondlarının uzunmüddətli dayanıqlılığı və inkişaf imkanlarının formalaşdırılmasında rolu, bu fondların qlobal iqtisadi sistemə təsiri, eləcə də rəqəmsallaşmanın suveren fondların investisiya idarəçiliyində tətbiqi perspektivləri barədə fikirlərini bölüşüb. O, müasir texnoloji innovasiyaların, aktivlərin qorunması və artırılması, həmçinin kapital bazarlarında şəffaflığın təmin olunması baxımından strateji əhəmiyyət kəsb etdiyini vurğulayıb.

ARDNF-in bu iclasda iştirakı Azərbaycanın beynəlxalq maliyyə icmasında etibarlı və məsuliyyətli institusional investor kimi mövqeyini möhkəmləndirir, həmçinin qlobal suveren fondlar arasında dayanıqlı inkişaf və uzunmüddətli kapital qoyuluşu sahəsində formalaşan dialoqa fəal töhfəsini nümayiş etdirir.

Suveren Fondların Beynəlxalq Forumunun katibliyi Böyük Britaniyanın paytaxtı Londonda yerləşir. Qurum 2009-cu ildən suveren fondlar arasında əməkdaşlığın təşviqi, təcrübə mübadiləsinin gücləndirilməsi və qlobal investisiya idarəçiliyində institusional etimadın artırılması istiqamətində fəaliyyət göstərir. Forumun 14-cü illik iclası 2022-ci ildə ARDNF-in həmtəşkilatçılığı ilə Bakıda keçirilib və bu tədbir Azərbaycanın suveren fondların qlobal icmasındakı rolunu əhəmiyyətli dərəcədə gücləndirib. 2024-cü ildə Omanın Maskat şəhərində keçirilən illik iclasda isə İ.Məmmədov sözügedən forumun İdarə Heyəti sədrinin müavini seçilib.

**Dünya Bankı Azərbaycan üzrə ilk dövri Ölkə İqtisadi İcmalını təqdim edib. Hesabat ölkənin makroiqtisadi göstəriciləri və perspektivləri barədə ətraflı məlumatı təqdim edir. Qurumun ölkəmizlə bağlı icmalı siyasət müzakirələrini məlumatlandırmaq, sübuta əsaslanan qərarların qəbulunu dəstəkləmək və müxtəlif maraqlı tərəflər arasında iş yerlərinin yaradılması və məhsuldarlığın artırılması yolları üzrə dialoqu təşviq etmək məqsədi daşıyır.**

# DB-nin ölkəmizlə bağlı iqtisadi icmalı




İcmalda Azərbaycanın son 10 ildə qlobal və regional sarsıntılara qarşı əhəmiyyətli dayanıqlılıq nümayiş etdirdiyi vurğulanıb. Qeyd olunub ki, Rəqabət Məcəlləsinin qəbulu, əhəmiyyətli vergi islahatları, lisenziya və icazələrin alınması prosedurlarının sadələşdirilməsi, əmək münasibətlərində şəffaflaşma və biznes mühitindəki çağırışların həlli istiqamətində atılan digər addımlar sahibkarlıq fəaliyyətinin dəstəklənməsində mühüm rol oynamışdır.

Bildirilib ki, ölkədə reallaşdırılan iqtisadi islahatlar, Cənubi Qafqazda strateji mövqeyi və zəngin enerji resursları güclü iqtisadi artımı və yoxsulluğun əhəmiyyətli dərəcədə azalmasını təmin edib. Eyni zamanda, hökumətin makroiqtisadi sabitliyə verdiyi önəm ölkəyə dəyişikliklərə, o cümlədən 2015-ci ildəki neft qiymətləri şoku və COVID-19 pandemiyasına qarşı mübarizə aparmağa, fiskal və xarici ticarət profisitlərini, aşağı dövlət borcunu və əhəmiyyətli makroiqtisadi ehtiyatları qoruyub saxlamağa imkan verib.

Son təhlil göstərir ki, 2025-ci ilin ilk yarısında neft-qaz sektorunda 3,2 faizlik azalma müşahidə olunsa da, qeyri-neft sektorunda 3,9 faiz artım qeydə alınıb. Hesabat dövründə tikinti, nəqliyyat, İKT və pərakəndə ticarət sahələrində fəaliyyət normallaşıb, kənd təsərrüfatı və turizm sahələri artım tempini qoruyub saxlayıb.

Hesabat müəllifləri qeyd ediblər ki, iyun ayının sonuna doğru daxili və xarici təzyiqlərin azalması ilə inflyasiya bir qədər aşağı düşüb və onun illik səviyyəsi 4,8 faizə enib. Bu göstərici Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun (4 ± 2%) mərkəz nöqtəsinə yaxındır.

Sənəddə qeyd olunur ki, xarici və fiskal balanslar əhəmiyyətli profisitlərə malikdir, baxmayaraq ki, neft-qaz gəlirlərinin azalması bu göstəriciləri bir qədər zəiflədib. Makroiqtisadi ehtiyatlar güclü olaraq qalır: Dövlət Neft Fondunun ehtiyatları 13,2 faiz artaraq 65 milyard ABŞ dollarına (ÜDM-in 88 faizi) çatıb, Azərbaycan Mərkəzi Bankının ehtiyatları isə 11,5 milyard ABŞ dollarına yüksəlib ki, bu da 5,6 aylıq idxala bərabərdir.

Yeri gəlmişkən, Dünya Bankı 2025–2027-ci illər arasında Azərbaycanda iqtisadi artımın orta hesabla 1,7 faiz səviyyəsində qalacağını proqnozlaşdırır. Bank bunu neft qiymətlərinin azalması fonunda ölkədə fiskal siyasətin sərtləşməsi ilə əlaqələndirir. Eyni zamanda, qurum inflyasiyanın Mərkəzi Bankın hədəf diapazonunda qalacağını gözləyir. Risklərə uzunmüddətli aşağı artım və enerji qiymətlərində daha kəskin azalma daxildir. Qısamüddətli risklərə qarşı ehtiyatlar kifayət qədər olsa da, uzunmüddətli dayanıqlılıq iqtisadiyyatın struktur islahatları vasitəsilə şaxələndirilməsi səylərinin uğurundan asılı olacaq.

Qeyd olunub ki, ölkəyə investisiya səviyyələri ÜDM-in, təxminən, son illərdə 20 faizədək hissəsini təşkil edir. Bu, əsasən, neft-qaz gəlirlərinin aşağı düşməsi fonunda dövlət investisiyalarının azalması ilə bağlıdır. Yerli özəl investisiyalar daxilə yönəlmiş sahələrdə, xüsusən də tikintidə cəmləşib.

Bankın hesabatında özəl sektorun potensialından faydalanmaq üçün struktur islahatlarının vacibliyi vurğulanır. Bu islahatlar siyasət sabitliyinin artırılması, bərabər rəqabət mühitinin təkmilləşdirilməsini, maliyyə resurslarına çıxışın genişləndirilməsi və məhkəmə sisteminin gücləndirilməsini əhatə edə bilər.

Xatırladaq ki, Azərbaycan üzrə Ölkə İqtisadi İcmalı ildə iki dəfə dərc olunacaq hesabatdır. Ölkədəki son iqtisadi hadisələri və perspektivləri əhatə edəcək hesabat iki hissədən ibarət olacaq. Birinci hissədə son iqtisadi meyillərin təhlili, orta müddətli perspektivlər və risklər müzakirə olunacaq, ikinci hissədə isə konkret siyasət məsələsi dərindən araşdırılacaq.

*Səhifəni hazırladı:*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Torpaqlarını işğaldan azad etmək Azərbaycanın qarşısıalınmaz hüququ idi

## *Dövlət başçısının bu barədə növbəti açıqlamasını dünyaya Almaniyanın "ARD" telekanalı yaymışdı*



**Uzun bir dövr davam edən ədalətsiz status-kvo, işğal və beynəlxalq hüququn pozulması fonunda xalqımız 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi ilə öz suverenliyini bərpa etmək, haqq səsini dünyaya çatdırmaq missiyasını yerinə yetirirdi. Bu mühüm prosesin siyasi, diplomatik və ideoloji cəbhəsində isə Prezident İlham Əliyev öz liderlik məktəbini, milli maraqlara söykənən qətiyyətini və beynəlxalq informasiya mübarizəsində misilsiz bacarığını nümayiş etdirirdi.**

Dövlət başçısının 2020-ci il oktyabrın 28-də Almaniyanın "ARD" telekanalına verdiyi müsahibə də bu informasiya diplomatiyasının parlaq nümunələrindən biri idi. Bu çıxış döyüş meydanındakı uğurların izahı olmaqla bərabər, eyni zamanda, siyasi baxımdan Azərbaycanın haqq işinə verilən beynəlxalq qiymətin formalaşmasında həlledici mərhələ idi.

Azərbaycan lideri "ARD"nin jurnalisti ilə söhbətində bir daha bəyan etdi ki, Azərbaycan Ermənistanla mübarizəsini ərazi bütövlüyü uğrunda, beynəlxalq hüququn bərpası, ədalətin bərqərar olması məqsədilə aparır. Bu fikrin təsdiqi olaraq dövlət başçısı diqqəti BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, lakin 27 il ərzində icra olunmayan qətnamələrə yönəltdi. Belə bir fakt, əslində, beynəlxalq sistemdəki ikili standartların açıq göstəricisi idi. Dövlət başçısı müsahibədə daha sonra Azərbaycanın bu qətnamələrin yerinə yetirilməsini hər zaman sülh yolu ilə istədiyini bildirdi. Lakin Ermənistanın destruktiv fəaliyyəti, təxribatları və işğal siyasətini möhkəmləndirməsi Vətən savaşını labüd etdi. Ölkəmizin belə bir mövqeyi – qəsbkarın işğalı genişləndirməsinə qarşı əks-hücuma başlanılması, əslində, ədalətin, dövlət məsuliyyətinin ifadəsi idi.

Müsahibədə jurnalistin savaşda İsrail və Türkiyə dronlarının rolu barədə sualına cavab verən ölkə rəhbəri İsrail istehsalı olan dronların Azərbaycanda uzun illərdir ki, istifadə edildiyini vurğuladı: "İsrail dronlarının bir hissəsi Ermənistanın təxribatına qarşı 2016-cı ildə istifadə olunmuşdur. Lakin o toqquşma Ermənistan dayandığına görə bir neçə gün davam etdi. Onlar bu dəfə də dayansaydılar, biz də dayanardıq. Lakin onlar dayanmadılar. Onlar bizə böyük ziyan vurmaq istəyirdilər. Onlar təmas xəttindən çox uzaqda yerləşən şəhərlərə raket atmağa başladılar və bizim mülki şəxslər arasında çoxlu qurbanlarımız var – bu vaxtadək 69 nəfər. Odur ki, biz özümüzü, xalqımızı müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız sərt idi, amma onlar buna layiq idilər".

Prezident İlham Əliyev jurnalistin "Azərbaycanın Dağlıq Qarabağda kasetli raketlərdən istifadə etdiyinizə dair "Amnesty International" və "Human Rights Watch" təşkilatlarından bəzi dəlillər var" ittiham xarakterli fikrini rədd edərək dedi: "Biz o silahlardan istifadə etmirik. Biz özümüzü müdafiə edirik. Biz "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını Azərbaycana dəvət etmişik. Əfsuslar olsun ki, onlar hadisələri yalnız Ermənistan tərəfindən işıqlandırırlar. Onlar bura gəlmək üçün bizə müraciət etməyiblər. Ona görə bizdə onların qərəzliliyi ilə bağlı böyük şübhələr var".

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Ordusunun şanlı Zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsi təkcə cəbhədə deyil, həm də beynəlxalq hüquq müstəvisində ədalət uğrunda aparılan savaş idi. Bu mübarizənin əsas istiqamətlərindən biri Ermənistanın müharibə qaydalarını və beynəlxalq humanitar hüququ kobud şəkildə pozması, dinc əhalini və yaşayış məntəqələrini məqsədyönlü şəkildə hədəfə alması faktlarının ifşası idi.

Prezident İlham Əliyev bu məsələni bütün beynəlxalq platformalarda prinsipial və ardıcıl şəkildə gündəmə gətirərək, Ermənistanın törətdiyi cinayətlərin hüquqi-siyasi qiymətini dəqiq ifadə edirdi. Azərbaycan lideri müsahibədə bununla bağlı faktlara əsaslanaraq, Ermənistanın Gəncə, Bərdə, Tərtər kimi şəhərlərə raket zərbələri endirməsini, dinc əhalinin hədəfə almasını beynəlxalq hüquq çərçivəsində müharibə cinayəti kimi qiymətləndirirdi, bunu erməni faşizminin növbəti təzahürü adlandırırdı: "Oktyabrın 10-da humanitar atəşkəs elan olunmuşdu. Növbəti gün onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar. Yəqin ki, siz bunun səbəb olduğu dağıntıları görmüsünüz və 10 mülki şəxs öldürülmüşdür. Onlar deyirlər ki, bunu onlar etməyiblər. Lakin bu, açıq-aydındır, çünki ballistik raketlərin buraxılışı peyk vasitəsilə müşahidə edilir. Beləliklə, Minsk qrupunun üç həmsədr ölkəsi, əlbəttə ki, bunu kimin etdiyini bilirlər. İkinci dəfə onlar eyni şeyi etdilər. Onlar atəşkəs elan olunduqdan 2 dəqiqə sonra onu pozdular. Üçüncü dəfə isə onlar dünən Bərdəyə kasetli raket atanda bunu etdilər. Dörd nəfər öldürülmüşdür, onların arasında yeddi yaşlı bir qız var".

Azərbaycanın dövlət başçısı Vətən müharibəsi günlərində dəfələrlə vurğulayırdı ki, Gəncə, Bərdə və Tərtər şəhərlərinə atılan raketlər müharibə qanunlarına ziddir, bu hücumlar sırf terror məqsədi daşıyır və beynəlxalq hüquq baxımından açıq-aşkar müharibə cinayətidir. Ermənistan ordusu cəbhə xəttindən uzaqda yerləşən bu şəhərlərdə mülki infrastrukturu – yaşayış binalarını, xəstəxanaları, məktəbləri, ticarət obyektlərini, uşaqları və qadınları məqsədli şəkildə hədəfə almışdı. Bu faktlar Prezident İlham Əliyevin qeyd etdiyi kimi, təkcə Azərbaycanın suverenliyinə qarşı deyil, həm də bütün bəşəri dəyərlərə, humanizm prinsiplərinə qarşı yönəlmişdi.

Xatırladaq ki, Gəncə və Bərdəyə atılan "Skad" və "Smerç" tipli raketlər nəticəsində onlarla dinc sakin həyatını itirdi, yüzlərlə insan yaralandı. Bu hadisələr beynəlxalq ictimaiyyətə təqdim edilən sübutlarla bir daha göstərdi ki, Ermənistan silahlı qüvvələri müharibənin elementar etik qaydalarına belə məhəl qoymur. Prezident İlham Əliyev bu faktları dünya mediası qarşısında konkret sənədlərlə, foto və video materiallarla ortaya qoyaraq, işğalçının cinayətkar mahiyyətini ifşa etdi və bildirdi ki, bu hücumlar müharibə deyil, terror aktıdır.

Beynəlxalq hüququn əsas prinsiplərinə görə, münaqişə şəraitində mülki əhalinin və onların əmlakının məqsədli şəkildə məhv edilməsi Cenevrə konvensiyalarının kobud pozuntusudur. Azərbaycan Prezidenti məhz bu kontekstdə Ermənistanın hərəkətlərini müharibə cinayəti kimi qiymətləndirərək, beynəlxalq ictimaiyyəti bu cinayətlərin tanınmasına və cəzasızlığın qarşısının alınmasına çağırdı. Bu, təkcə hüquqi deyil, həm də mənəvi məsələ idi. Çünki Vətən müharibəsində Azərbaycan dövləti heç vaxt mülki obyektləri hədəf almadı, əməliyyatları yalnız beynəlxalq humanitar hüquq çərçivəsində apardı.

***Vaqif BAYRAMOV***
***XQ***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

## *31 oktyabr*

• Müdafiə Nazirliyinin məlumatına görə, oktyabrın 30-u gün ərzində və 31-nə keçən gecə Ermənistan ordusu cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Silahlı Qüvvələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.



Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd PDM, 2 ədəd "Smerç" və 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 12 ədəd müxtəlif tipli topu, 1 ədəd "Osa" ZRK, 1 ədəd radioelektron mübarizə stansiyası, 2 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

• Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan Müdafiə Nazirliyinin rəsmisinə istinadən guya Azərbaycan Ordusunun Qafan şəhəri yaxınlığındakı David Bek kəndi istiqamətində döyüş əməliyyatları aparması barədə bu ölkənin mətbuatının yaydığı məlumat həqiqətə uyğun deyil.

Azərbaycan Ordusunun bölmələri göstərilən istiqamətdən Qubadlı ərazisini artilleriya atəşinə tutan düşmənin atəş nöqtələrinə cavab atəşi açıb. Bundan sonra da düşmənə qarşı adekvat cavab tədbirlərinin görüləcəyi nəzərdə tutulub.

• Müdafiə Nazirliyindən bildirilib ki, oktyabrın 31-də günün birinci yarısında Azərbaycan Ordusu tərəfindən endirilən zərbələr nəticəsində düşmənin döyüş texnikası və xeyli sayda canlı qüvvəsi sıradan çıxarılıb. Düşmənə vurulan dəqiq atəş zərbəsi ilə Ermənistan silahlı qüvvələrinin 3 tankı, 1 "Qrad" yaylım atəşli reaktiv sistemi, sursatla dolu 1 yük maşını, döyüş mövqeyində və qoşquda olan 3 topu, o cümlədən xeyli sayda canlı qüvvəsi məhv edilib..

• Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 31-i saat 13:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 91 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2465 ev, 97 çoxmənzilli yaşayış binası və 455 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edilib ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

***Mustafa KAMAL***
***XQ***

# Hərb tarixində möcüzə: Qısa müddətdə böyük Qələbə

## *Düşmənin 30 ildə möhkəmləndirdiyi istehkamlar, mövqelər 30 gündə məhv edilmişdi*

**Müharibələri doğuran səbəblər fərqli olsa da, sonu kəndlərin, şəhərlərin viran qalması, ana fəryadı, dağılan evlər, sönən ocaqlar, ölüm, göz yaşıdır. Bütün bunlar isə dünyaya meydan oxuyan işğalçının məqsədinə çatmaq üçün qəddarlıq, zorakılıq və amansızlığı, insan taleyinə biganəliyidir.**

Müxtəlif dövrlərdə aparılan savaşlar uzunmüddətli və ya qısamüddətli olub. Uzun çəkən müharibələrdə böyük güclərin ərazi uğrunda mübarizəsi önə çəkilib. Bu müharibələrdə çox zaman hər iki tərəf böyük tələfat verib, genişmiqyaslı dağıntılar olub. Qısa müddətdə başa çatan savaşlar isə əsasən güclü və zəif dövlətlər arasında baş verib. Güclülər düşmənə sarsıdıcı zərbə vurub və qısa müddətdə mütləq qələbə əldə edib. Vətən müharibəsində də qısa bir müddətdə – 44 gün ərzində diplomatiyanın həll edə bilmədiyi münaqişə hərb yolu ilə başa çatdırılaraq ədalətli qələbə qazanılıb.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Azərbaycan Ordusu bu savaşda düşmən ordusunu darmadağın edərək ölkəmizin ərazi bütövlüyünü gerçəkləşdirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Prezident Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin tarixi Zəfəri ilə başa çatdı. Ordumuzun Qarabağ uğrunda müqəddəs yürüşünün hər günündə xalqımıza qələbə müjdəsi verildi. Hər gün qəhrəman döyüşçülərimiz irəli getdilər və 44 gün ərzində bir dəfə belə geri çəkilmədilər. Çünki Ali Baş Komandanın "İrəli" əmri ilə mənfur düşmən üzərinə yeriyən cəsur döyüşçülərimiz "bu yolda öldü var, döndü yox" deyərək haqq savaşına çıxmışdılar. Azərbaycanın mərd oğulları 44 gündə bəşər tarixində misli görünməmiş qəhrəmanlıq, vətənpərvərlik nümayiş etdirdilər, dünya hərb tarixində yeni döyüş təcrübəsi yaratdılar.

Prezident İlham Əliyev 2020-ci il sentyabrın 27-dən etibarən xalqımıza zəfər müjdəli müraciətlər etdi və qələbə xəbərləri çatdırdı. Ali Baş Komandanın xalqa hər müraciətindən sonra ölkəmizin bütün bölgələrində, paytaxt Bakıda əhali küçələrə çıxaraq şanlı qələbənin qürurunu bölüşdü, meydanlara axışaraq əllərində Azərbaycan bayraqları bu uğurları bayram etdi, müqəddəs and yerlərimiz olan Şəhidlər xiyabanlarına ziyarətə yollanaraq canından-qanından keçən igidlərimizin əziz ruhu qarşısında baş əydi.

Vətən müharibəsində qazanılan şanlı Qələbə həm də xalqımızın birliyinin, yenilməz gücünün nümayişi oldu. Müharibə başlayan andan etibarən vəzifəsindən, statusundan, yaşından asılı olmayaraq hər kəs Vətən uğrunda könüllüyə çevrildi, "dəmir yumruğ"a dönərək düşmənin başını əzdi. Təəssüf ki, bütün bunlar mənfur düşmənə dərs olmadı. Nəhayət, 2023-cü il sentyabrın 19-u səhər saatlarında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki qanunsuz silahlı birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən terror məqsədilə ordumuzun təminat yollarının minalanması nəticəsində iki mülki şəxs və Daxili İşlər Nazirliyinin 4 polis əməkdaşının şəhid olması ölkəmizin səbir kasasını daşırdı. Nəticədə düşmənin pozuculuq fəaliyyətinin qarşısının alınması bölgədə davamlı şəkildə törədilən təxribatlara cavab olaraq ölkəmizin suveren əraziləri daxilində – Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələrinə qarşı məhdud və lokal xarakterli legitim antiterror tədbirlərinə başlanıldı.



Antiterror tədbirləri çərçivəsində rəşadətli Azərbaycan Ordusu yüksək həssaslıq və peşəkarlıq nümayiş etdirərək qanunsuz erməni silahlı birləşmələrinin ön xətt və dərinliklərdə olan mövqelərini, uzunmüddətli atəş nöqtələrini, döyüş vasitələrini, bir sözlə, yalnız hərbi obyektləri və infrastrukturu nöqtə atışlı zərbələrlə neytrallaşdırdı. Bu davranış Silahlı Qüvvələrimizin arsenalında müasir tipli silahlara və yüksək texniki imkanlara malik olmasına rəğmən, ümumilikdə, ölkəmizin yüksək humanizm prinsiplərinə sadiqliyini, eləcə də zəngin mənəvi keyfiyyətlərə sahib olduğunu nümayiş etdirdi.

Beləliklə, 2023-cü il sentyabrın 20-də 24 saatdan da az müddətdə yekunlaşan lokal xarakterli antiterror tədbirləri real nəticə verdi. Ordumuz qəhrəmanlıq, şücaət və peşəkarlıq nümayiş etdirərək düşmənə ağır zərbələr vurdu. Beləliklə, Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələri ağ bayraq qaldıraraq silahı yerə qoyub təslim oldular. Bununla da, həm terrorçu ermənilərə, həm də onların havadarlarına yerləri göstərildi və Azərbaycan dövlətinin bütün ərazisində suverenliyimiz tam bərpa edildi.

Döyüşdə oğulları şəhid olan ana-ataların beli bükülmədi, başını dik tutub "Vətən sağ olsun!" dedilər. Döyüş meydanından kilometrlərlə uzaq olan yaşayış məntəqələrimiz faşist xislətli düşmən tərəfindən atəşə tutulanda o bölgələrin sakinləri "ölsək belə, yurdumuzu tərk etmərik" söylədilər.

Hazırda Azərbaycan öz imkanları hesabına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa-yenidənqurma layihələri həyata keçirir. "Böyük Qayıdış" proqramı çərçivəsində artıq minlərlə keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdıb. Bu ilin sonunadək 140 min keçmiş məcburi köçkünün öz doğma ocağına dönməsi nəzərdə tutulub.

***Nurəngiz ADİLQIZI***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# "Dəmir qanadlı" şahin

**Şəhid polkovnik-leytenant Ramiz Qasımov Hərbi Hava Qüvvələrinin ən bacarıqlı uçuş heyəti komandirlərindən biri olub. Vətən müharibəsinin ilk günündə Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüş tapşırığını yerinə yetirərkən düşmən üzərinə əks–hücuma keçən polkovnik-leytenant Ramiz Qasımov öz ekipajı ilə Ağdərə–Tərtər istiqamətində düşmənin radio-elektron mübarizə vasitəsini, zenit-raket kompleksini məhv edib, dığaların başına od yağdırıb. Göstərdiyi qəhrəmanlığa, igidlik və mərdliyə görə ona "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verilib.**





Ramiz Qasımov 1975-ci il fevralın 17-də Beyləqan rayonunda anadan olub. 1992-ci ildə orada orta məktəbi bitirdikdən sonra Azərbaycan Ordusunda Uçuş Hazırlığı Təlim Mərkəzini və Azərbaycan Ali Hərbi Məktəbini "Hava hücumundan müdafiə" ixtisası üzrə bitirib. Hərbi Hava Qüvvələrində vertolyot eskadrilyasının axtarış-xilasetmə xidməti aviasiya manqasının şturmanı vəzifəsindən aviasiya bazası komandirinin uçuşların təhlükəsizliyi üzrə müavini – bölmə rəisi vəzifəsinədək yüksəlib.

2016-cı il Aprel və 2020-ci il Tovuz döyüşlərində iştirak edərək döyüş uçuşunu uğurla həyata keçirib. HHQ-nin döyüş salnaməsinə parlaq səhifələr yazıb. Yüksək "Snayper" dərəcəsinə yüksəlmiş təlimatçı və sınaqçı pilot olan Ramiz Qasımov sağlığında 7 döyüş medalı ilə təltif edilib. Azərbaycan Silahlı Qüvvələrinin veteranı kimi bir çox milli təyyarəçi kadrların yetişməsində əvəzsiz xidmətlər göstərib. Komandanlıq və şəxsi heyət arasında böyük nüfuz sahibi olmaqla yanaşı, yüksək mənəvi və iradi keyfiyyətlərə malik bir şəxsiyyət kimi fərqlənib.

...Tərxis olunmasına az qaldığı üçün dostlarına deyirdi ki, kaş, qisas qiyamətə qalmasın. Atamın öyüdü bu olub ki, döyüşək və qələbədə mənim də payım olsun. Nəhayət, arzusu baş tutdu. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpası və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başladığı Vətən müharibəsinin ilk günündə polkovnik-leytenant Ramiz Qasımov ekipajı ilə birlikdə Ağdərə–Tərtər istiqamətində döyüş əməliyyatlarında düşmənə çox ciddi itkilər verdi. Lakin bu



zaman onun idarə etdiyi vertolyot vuruldu. Ramiz Qasımov dərhal bortda olan digər 2 nəfər heyət üzvünə vertolyotdan "atılma" əmrini verdi. Özü isə yaralanmasına baxmayaraq, üzərində olduğu Azad Qaraqoyunlu kəndinin 1500 nəfərlik mülki əhalisinin zərər çəkməməsi üçün vertolyotu təhlükəsiz istiqamətə yönləndirdi. Son anda paraşütlə atılsa da, başından ağır zərbə aldı. Hospitalda koma vəziyyətində 25 gün qalandan sonra oktyabrın 22-də gözlərini əbədi yumdu.

Beləcə, "Usta" pilot döyüşlərdə 1 günlük də olsa, cövlan edə, Vətən səmasına son "avtoqraf"ını yaza bildi. Artıq 5 ildir ki, onun ruhu göylərdə pərvaz edir.

Bakıda Ramiz Qasımovun adını daşıyan 216 nömrəli Qala kənd tam orta məktəbində "Səmadakı qəhrəman" adlı anım mərasimindən əvvəl şəhidin övladı Gülanə Qasımlının rəsm əsərlərindən ibarət sərgiyə baxanlar xeyli kövrəldilər. O, atasının obrazını da canlandırmışdı.

**Şəhidin qızı Gülanə:**

– Atam məni rəssam kimi görmək istəyirdi. Çəkdiyim rəsmləri çox bəyənirdi, hətta mənə rəssamlıq ləvazimatları da almışdı. Atamın doğum günündə onun rəsmlərini çəkib hədiyyə etmişdim. Nə yaxşı ki, elə bir qəhrəmanın qızıyam. Çox heyif, o, bu gün bizim yanımızda deyil. Yoxluğunu qəbul etmək çətindir. Vətən sağ olsun. Atama və bütün şəhidlərimizə Allah rəhmət eləsin.

**Həyat yoldaşı Günel xanım:**

– Ramiz Vətənə və hərbiyə bütün varlığı ilə bağlı idi. Qızlarımız Gülay və Gülanəni, oğlumuz Vaqifi hamıdan çox istəyirdi. Vaqifin onun yolunu davam etməsini arzulayırdı. Ramizin işi ilə bağlı çətinlikləri gördüyümə görə bu məsələdə tərəddüd edirdim. O isə deyirdi ki, yox, Vaqif mütləq hərbi pilot olmalıdır. Mən onun arzusunu yerinə yetirəcəyəm. Bu yolda Vaqifə dəstək olacağam. Əminəm ki, bu, Ramizin ruhuna əyan olacaq.

**Oğlu Vaqif:**

– Bəli, atam məni hərbi pilot kimi görmək istəyib. Onun arzusunu yerinə yetirəcəyəm. O, bizi çox sevirdi, özü ilə gəzdirirdi. Atamın helikopterini görmüşdüm. Məni onunla tanış edirdi ki, böyüyəndə pilot olum.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Döyüş ruhundan güclü silah yoxdur!

**Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) polkovnik-leytenantı Saleh Həsənovu ilk dəfə silahdaşı, şəhid kapitan Fikrət Məmmədov haqqında sənədli televiziya filmi hazırlayandan tanımışdım. Məğrur səsi, ciddi baxışları və qürurverici çıxışı ilə yadımda qalmışdı. Elə o zaman Salehin Azərbaycan Ordusu üçün necə dəyərli zabit olduğunu kəşf etmişdim.**

Pakistan Ordusunda XTQ-nin ilk şəhidi Fikrət Məmmədovdan sonra təlimlər keçən, hərbi təhsil alan və xüsusi təyinatlı kimi mühüm normativləri ən yüksək səviyyədə yerinə yetirən bu Azərbaycan hərbçisinin adı İslamabadın yaxınlığındakı məşhur Çerat hərb muzeyində əbədiləşdirilmişdir. XTQ-nin zabiti, polkovnik-leytenant Saleh Həsənovun tərcümeyi-halının qürurverici anlarından yazmaqla qəhrəman Vətən oğulları ilə bir daha öyünməyimizi xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm.



Saleh Valeh oğlu Həsənov 1986-cı ildə Goranboy rayonunun Qızılhacılı kəndində doğulub. Şəhid Dilbazi Qasımov adına 1 saylı tam orta məktəbi qurtardıqdan sonra müxtəlif ali məktəblərdə təhsilini davam etdirib. 2011-ci ildə Pakistan ordusunda təlimlərə qoşulub, Xüsusi Əməliyyat Məktəbində hərb sənətinin incəliklərini öyrənib, 2017-2018-ci illərdə Rusiyada Ryazan Hava Desant Məktəbini bitirib.

XTQ-nin zabiti Saleh Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcərin, Xocavəndin, Cəbrayılın, Şuşanın azadlığı uğrunda aparılan döyüşlərin iştirakçısı olub. Rəşadətli hərbçi kimi göstərdiyi qəhrəmanlıq nümunəsi yüksək qiymətləndirilib. "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Söhbətimiz zamanı Böyük Zəfərimizin 5 illik tarixi haqqında təəssüratlarını danışdı:

– Hazırda Qələbə paradına hazırlaşırıq. Bu Zəfər böyük sərkərdə – Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin, xalqımızın və Silahlı Qüvvələrimizin "Dəmir Yumruğ"unun möhtəşəm qələbəsidir. Vətən müharibəsi dərsliklərə, kitablara yazılan yeni şanlı tariximizdir. Savaşın ilk günü ilə sonrakı günlərini müqayisə etsək, döyüşçülərin mənəvi-psixoloji vəziyyətinin dəyişməsini xüsusi qeyd etmək lazımdır. Birinci gün müharibə başlayanda biz döyüşlərin nə qədər uzanacağını bilmirdik. Öz gücümüzə əmin idik, sadəcə, düşməni bilavasitə döyüş meydanında dişimizə vurmamışdıq. İlk uğurlardan sonra özümüzə inamımız daha da artdı.

27 sentyabrda döyüşə Kəlbəcər istiqamətindən başlamışdıq. Müəyyən tapşırıqları icra edəndən sonra Göygöl, Gəncə, Tərtər, Bərdə istiqamətində yaşayış məntəqələrində olduq. Döyüşçülər hələ tam uğur əldə etməmiş mülki əhalinin içinə girəndə dinc sakinlər anladılar ki, müharibə başlanıb. Bu o insanlar idi ki, 90-cı illərdə də müharibənin ağrı-acısını yaşamışdılar. Əlbəttə, xalqımız əsgərə də, zabitə də həmişə hörmətlə yanaşıb. Bir sözlə, Azərbaycan hərbçisinə ümumxalq məhəbbətinin şahidi olmuşuq.

Müharibə hər kəs üçün böyük imtahan idi. Bütün iradəmizi, qalibiyyət gücümüzü ortaya qoymuşduq. Biz bir idik və heç bir güc qarşımızda tab gətirə bilmədi. Yaşlı analar, ağsaqqal kişilər bizə xeyir-dua verirdilər. "Gedin ölün, öldürün, amma torpağı almamış geri dönməyin", – deyirdilər. Bir qismət çörəyi belə maşınımızın dalınca qaçaraq bizə çatdırırdılar. Bütün bunlar döyüşçülərdə çox fərqli bir ruh yaratdı və biz öz aramızda dedik ki, bu insanların qarşısına mütləq qələbə ilə qayıtmalıyıq.

Komandirlərimizin, siyasi rəhbərlərimizin şəxsi heyət qarşısında çıxışları, qələbəyə səsləyən nidaları döyüşçüləri ruhlandırırdı. Və mən deyərdim ki, müharibədə silahdan da, təchizatdan da daha qüvvətlisi döyüş ruhudur. Qələbə ruhu olmayan əsgərin əlinə hansı modern silahı verirsənsə ver, onun döyüşdə qalib gəlməsi mümkün deyil. Zəfər yürüşümüz zamanı döyüşdə hər şeyi qətiyyət, qeyrət, aydın məqsəd, Vətən üçün can fəda etmək əzmi həll edirdi...

Hadrutda çox qızğın döyüşlər oldu. Düşmən diviziyasının komanda məntəqəsi orada yerləşirdi. Taktiki cəhətdən, say etibarı ilə bizim qüvvələrin oraya girməsi sual altında idi. Amma az sayla həm Hadrutda, həm də Şuşa döyüşlərində dünya hərb tarixinə düşən hərbi taktika ilə düşməni məğlub etdik. Daşnaklar bizim sayımızı təxmin edə bilmirdilər. Taktiki cəhətdən qiymətləndirsək, onlar sayca bizdən çox idilər.

Şuşanın alınmasında qeyri-adi hadisələrdən danışmaq istərdim. Elə olub ki, 3–5 döyüşçü bir bölüyün üstünə gedirdi. Siz döyüş ruhunun insana təsirinin gücünə fikir verin. Azsaylı şəxsi heyətimizin qarşısında bir bölük erməni aciz qalırdı. Bir komandir kimi dərk edirdim ki, qələbəyə doğru gedirik, Zəfər bizimlədir! Bir də bu meydanda bütün xalq ruhən döyüşürdü, ona görə Zəfərimizin əldə olunmasında hamının payı var.

Bəzi ərazilərimizi azad edəndən sonra efir tezliklərimiz vasitəsilə imkan olduqca, radiolarımıza qulaq asırdıq. Son xəbərləri dinləyəndə Ali Baş Komandanımızın qətiyyətini, əhalinin qalibiyyət əzmini duyduqca, ürəyimiz dağa dönürdü, qolumuzun gücü birə-yüz artırdı. Xüsusilə, ölməz Üzeyir bəyin "Cəngi"si ruhumuza ruh qatırdı. Şuşadakı qələbəmiz Azərbaycan ordusunun qalibiyyət taktikasını, xalqımızın gücünü bütün dünyaya nümayiş etdirdi.

Bir komandir kimi Müzəffər Ordumuzla bu gün də qürur duyuram, sabah da fəxr edəcəyəm.

***Kəmalə ABDİNOVA***
***XQ***

# "Vətən yolunda şəhidi ağlamazlar"



**Bu sözlər şəhid Kərim Əliyevin atası, Birinci Qarabağ savaşının döyüşçüsü Məhəmmədəli Əliyevin böyük ürəyə sahibliyindən xəbər verir: "Yox, yox, ağlamıram. Qəhrəmanı ağlamazlar… oğlumla - Kərimimlə fəxr edirəm. Oğlum fərari olsaydı, düşmən qabağından qaçsaydı fərsiz övlad böyütdüyüm üçün ağlayardım. Mən özüm Qarabağ qazisiyəm". Məhəmmədəli kişi söhbətin davamında deyir:**

Haralarda döyüşməmişəm?! Şuşa, Laçın, Qubadlı, Goranboy, Tərtər istiqamətində gedən qanlı döyüşlərdən çıxmışam. Vaxtilə Gülüstan istiqamətində gedən döyüşlərdə ağır yaralanıb, qazi olmuşam. Allah kişini, oğulu qeyrət qalası kimi dünyaya gətirib. Oğul düşmənə çəpər olmalıdır. Vətəninin qeyrətini çəkməlidir. Mən oğlanlarımın ikisini də belə böyütmüşəm. Hərbçinin öz həyatı olur. Qanı var, qadağası var… Ölümü var, əcəli var. Amma demişdim ki, üstümə cənazənizi gətirsələr, birinci çevirib kürəyinizə baxacağam. Əgər arxadan yaralanmısınızsa, əgər güllə arxadan dəyibsə, onda deyəcəyəm ki, mənim oğlum deyil…

Çox şükür ki, üzümü qara etmədilər. Mənim gedə bilmədiyim yolu Kərim getdi… Müharibəyə getdiyini bizə bildirmədi. Müharibədən bir gün öncə evə gəlmişdi. Vaxtaşırı gəlirdi. Burada, İsmayıllıda təlimdə idilər. Sonuncu dəfə gələndə gecədən xeyli keçmişdi. Gördüm, Kərim yatmayıb. Düşüb həyətdə gəzir, eyvanda oturub həyətə tamaşa edir…

Sonra gördüm ki, gecədən xeyli keçməsinə baxmayaraq, yatdığı otağın işığı sönməyib. Keçdim onun yanına, gördüm yataqda uzanıb, gözünü yuxarı zilləyib baxır. Nə isə fikirləşir. Nə qədər etdim, bir söz demədi. Səhər gedəndə məni bağrına basıb bərk-bərk qucaqlayıb "Veteran, özünü qoru", – dedi. Dedim, sən də özünü qoru, sən əsgərsən. Ehtiyat əsgərin silahıdır.

Müharibənin başlanması xəbərini eşidən də başa düşdüm ki, Kərimim niyə yatmırmış, nəyi fikirləşirmiş. Anası danışığımızı eşitməsin deyə bağa tərəf gedib Kərimə zəng vurdum. Döyüşdə idi… Mənə zarafatca dedi ki, "Ey, Qarabağ qəhrəmanı, qazi atam, özün müharibə görmüş kişisən. Müharibədir, haqqını halal elə. Bu yolun gedişi olur, bəzən dönüşü olmur… Ya torpaqları azad edən qəhrəmanlardan olacam, ya da torpaq, vətən uğrunda namusla döyüşüb şəhid olub, üçrəngli bayrağa bükülüb gələcəm… Elə də oldu.

Bir gözü gülüb, bir gözü ağlayır sanki atanın. Məhəmmədəli kişinin bu xatirəsi sanki bir dastandır. Kitablara sığmayan əbədiyyət dastanı.

**Dayısı, ehtiyatda olan polkovnik Müşviq Səfərovun Kərimlə bağlı xatirələri kövrək notlara köklənib:**



"Bir hərbçi, Vətəninə qulluq etmiş bir insan kimi, gözəl Azərbaycanımın Kərim kimi bir oğlu olduğu üçün bir dayı kimi, eyni zamanda, bir vətəndaş olaraq onu yaxından tanıdığım üçün çox qürurluyam. Kərim təkcə mənim bacım oğlu, bir ailəyə, bir kəndə mənsub qəhrəman deyil, bütövlükdə Vətənin oğlu idi. Onun itkisi də hesab edirəm ki, vətənimin itkisidir. Ona görə də Vətən, başın sağ olsun, – deyirəm. Bir ölüb min dirilərik, təki, vətən sağ olsun.

Kərimdə əsl hərbçi xasiyyəti var idi. Möhkəm idi. Ağzıbütöv idi. Vətənsevər idi…Bir də gördüm ki, Kərim ön cəbhədə hərbi hissələrin birində MAXE kimi qulluğa başlayıb. Bir qədər orada qulluq edəndən sonra Kərim dedi ki, "dayı, mən XTQ-də qulluq etmək niyyətindəyəm. Orada qulluğun özəllikləri olduğunu, seçimdən keçməyin asan olmadığını Kərimə söylədim. Bilirdim ki, XTQ-də qulluq etmək üçün 100 nəfərdən 5 nəfəri, 3 nəfəri dözüb sona kimi qala bilmir. Söhbətimizin üstündən 6 ay keçmişdi ki, Kərim mənə zəng edib XTQ-nin kursunu bitirdiyini və xidmətə başladığını dedi.

O gün mənim həyatımın ən xoş, ən sevincli günü idi... Kərimin boy-buxunu, çəkisi, fiziki hazırlığı XTQ-də xidmət üçün yarayırdı. Amma onun dözümünü, dəyanətini bilmirdim. Bu xəbər mənim üçün çox qiymətli idi. Kərim özünə diqqət verən hərbçi idi. Çalışqan idi. Yorulmaq nə olduğun bilməzdi. Demək olar ki, bütün silah növlərindən peşəkarcasına istifadə etməyi bacarırdı. Təlimlərdən əlavə, mütaliə etməyi xoşlayardı. Müharibənin ilk günündən oktyabrın 17-nə kimi onunla mütəmadi telefon əlaqələrimiz olub.

Kərimin gözəl xasiyyəti var idi. Adama ruh, güc, qüvvət verməyi bacarırdı. Xaraktercə çox nikbin idi. Adamı inandırmağı bacarırdı. Mən ona telefonda Qartal deyirdim. Hər zəng edəndə "Dayısının qartalı, vəziyyət necədir?", – soruşurdum. Cavabı da belə idi: "Qartal qarğaları təmizləyir. Bizim Vətənimizdə leş qarğası olmamalıdır. Qələbə bizimlədir, cənab polkovnik, ürəyin rahat olsun.

Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə, Kərim Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Müşfiq MİRZƏ***
***XQ***

# Zəfərin təntənə rəngləri

**Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Zəfərin rəngi" adlı tədbir keçirilib.**

Əvvəlcə Ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Səid Rüstəmov adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin xor kollektivinin ifasında Dövlət Himni səsləndirilib. 44 günlük Vətən müharibəsində Zəfərə həsr olunan videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində Vətən müharibəsi şəhidi Elvin İsgəndərovun oğlu Cəsur İsgəndərovun və şəhidimiz Elman Babaxanov qızı Asena Babaxanovanın iştirakı ilə gənc rəssam Emin Aslanovun "44 Zəfər Plakatı" adlı sərginin açılışı olub.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları Səbinə Salmanova, Hikmət Babaoğlu, Pərvin Kərimzadə və Rizvan Nəbiyev Zəfər Gününü Azərbaycan xalqının qürur və şərəf səhifəsi kimi dəyərləndiriblər. Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun anası Səmayə Həşimova isə çıxışında qeyd edib ki, Azərbaycan xalqı öz igid oğullarının



xatirəsini heç vaxt unutmayacaq, onların qanı bahasına qazanılmış bu Zəfər nəsildən-nəslə iftixarla ötürüləcək.

Mərasimdə qeyd olunub ki, burada təqdim olunan bütün rəsmlər Sumqayıt şəhər məktəblərinə hədiyyə ediləcək. Tədbir bədii hissə ilə davam etdirilib.

***Ə.ƏLİYEV***
***XQ***

*I Türkoloji Qurultay – 100*




# Cəlil Məmmədquluzadənin ana dili və əlifba islahatı uğrunda mübarizəsi

## *Ədibin publisistikasında I Türkoloji Qurultayın hədəfləri geniş əksini tapıb*

**(əvvəli 1-ci səhifədə)**

Komissiyanın mətbu orqanı olan "Yeni yol" qəzetinə redaktorluq Cəlil Məmmədquluzadəyə həvalə edildi. Qəzet fəaliyyətə başladığı gündən, demək olar ki, bütün saylarında əlifba məsələsinə geniş yer verirdi.

Hələ XIX əsrin ortalarından başlayaraq Azərbaycan elminin mütəfəkkirləri Məhəmməd Ağa Şahtaxtlı, Səfərli bəy Vəlibəyov, Mahmud bəy Mahmudbəyov, Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyli, Fərhad Ağazadə və başqa ziyalılarımız yeni əlifba uğrunda mücadilə aparmışlar. 1926-cı ildə keçirilən I Türkoloji Qurultayda milli ziyalılarımız əlifba islahatı aparılmasına, latın qrafikalı əlifbaya keçilməsinə nail olmuşlar.

Görkəmli ədibimizin publisistik məqalələrində körpə balalarımıza doğma dilimizin tədrisi ilə bağlı geniş söhbət açılmışdır. Məsələn, Mirzə Cəlilin "Tiflisski listok" qəzetinin 5 avqust 1905-ci il 159-cu sayında dərc edilmiş "Yeni ibtidai məktəbdə Azərbaycan dili" adlı məqalədə Qafqaz təhsil dairəsindəki yerli əhali üçün birsinifli məktəblərin tədris planını hazırlayan xüsusi komissiyanın iclas protokolundan danışılır. Yazıda komissiya üzvlərindən olan Bağırovun, Qəniyevin, Sanıyevin mülahizələrinə münasibət bildirilib. Müəllif iclasının nəticələrinə də diqqət yetirilərək, onların hansı işlər gördükləri barədə də söz açıb.



Yazıda bildirilib: "Komisssiya heç bir iş görməmiş, heç bir tədris planı tərtib etməmişdir. O ancaq Qafqaz təhsil dairəsi himayədarlar şurasının 1880-ci il dekabrın 12-də tərtib etdiyi ibtidai məktəbdə tədris planını sözbəsöz köçürmüşdür. Həmin tədris planı Qafqaz canişini imperator zati ailələri Mixail Nikolayeviç tərəfindən təqdir edilərək, Qafqaz təhsil idarəsinin 1881-ci il 4 fevral tarixli, 598 nömrəli göstərişi ilə yerli əhali arasındakı məktəblərin müdirlərinə əldə rəhbər tutmağa göndərilmişdir".

Mirzə Cəlil bu məsələ ilə maraqlananlara və söylədiklərinin reallığına şübhə ilə yanaşan oxuculara Qafqaz təhsil dairəsi sərəncamlarının məcmuələrinə baxmağı tövsiyə edib. Yazıçı yeni ibtidai məktəblərdə müəllimlərin azlığından, yerli dillərin tədrisdən çıxarılmasından, hər yerindən duranın inspektor vəzifəsini icra etməsindən, məktəb komissiyasında həyatın və xalqın tələbləri ilə yaxından tanış olan adamların iştirak etməməsindən, tədris planının mükəmməl tərtib edilməməsindən bəhs edib.

O, əminliklə yazırdı ki, əgər məktəb komissiyasında həqiqətən həyatın və xalqın tələbləri ilə tanış olan adamlar iştirak etsəydilər, o zaman onlar səssiz-səmirsiz protokolu imzalamaq əvəzinə, yerlərindən qalxan komissiya üzvlərinə üz tutub deyərdilər: "Ağalar 12 dekabr 1880-ci ilin ibtidai məktəb tədris planında Azərbaycan dilinə heç də sizin nəzərdə tutduğunuzdan az yer verilməmişdir, lakin buna baxmayaraq, o vaxtdan keçmiş 25 illik müddət ərzində, bütün hökumət məktəblərində olduğu kimi, ibtidai məktəblərdə də Azərbaycan dilinin keçilməsi nəinki vacib sayılmamış, bəlkə, artıq görülmüşdür... Ağalar! Heç bir tədris planı etməyin... nə qədər ki, müxtəlif xırda adamlar, bu məsələdə isə sözükeçən zorbalar Azərbaycan dilini təqib edirlər, nə qədər ki, darülmüəllim direktorları özlərinə tabe olan Azərbaycan dili müəllimlərindən bu "çaq-çuq"un tədrisinə çox da səy göstərməməyi tələb edirlər, nə qədər ki, levitsikilər müvafiq yollarla yerli dilləri məktəbdən kənara vurub çıxarırlar, nə qədər ki, hər yerindən duran inspektor öz dərsinə şövqü olmayan Azərbaycan dili müəllimlərini ağızdolusu tərifləyir, sizin planlarınız işə kömək etməyəcəkdir".

Qarşıdakı məsul işi görmək üçün komissiyanın bəzi üzvlərinin xahişinin tamamilə haqlı olduğunu və bu xahişlərin qəbullanmasının səbəblərindən danışan müəllif yerli dillər, bu xüsusda Azərbaycan dilinin tədrisi ilə bağlı qarşıya çıxan çətinlikləri də ayrı-ayrılıqda göstərir və buraya Azərbaycan dilinin tədrisinin pedaqoji hazırlığı olmayan səriştəsiz adamlara tapşırılması, yeni tədris planının müasir tələblərə cavab verməməsi və s. kimi məsələləri aid edir. Görkəmli publisist Darülmüəllimini, Seminariyanı bitirən azərbaycanlıların savadsız olmalarından acı-acı gileylənərək, məqaləsini ritorik suallarla sona çatdırır.

Mirzə Cəlilin 5 oktyabr 1905-ci il "Vozrojdeniye" qəzetinin 3-cü sayında dərc etdirdiyi "Bəs Asipova xanımın müsəlman qızları üçün məktəbi necə oldu?" başlıqlı məqaləsində bir ilə yaxın zaman ərzində Asipovanın müsəlman qızları məktəbi açmaq üçün icazə ərizəsi verməsindən, bu xahişə indiyədək baxılmamasından, rəy üçün Zaqafqaziya müftisi və Şeyxülislamına göndərilməsindən, onların isə bu ərizəyə rədd cavabı verməlerindən bəhs edilərək, göstərilib: "Nə ibtidai məktəb haqqında qüvvədə olan qanunnamələrdə, nə də ruhani idarələrin mövcud qaydalarında müsəlman məktəbi üçün heç bir normal proqram olmadığından, bu çətin vəziyyətdən çıxmaq yolu Asipova xanımın üzünə həmişəlik bağlanmışdır".

Məqalədə Zaqafqaziya müftisi və Şeyxülislamın diqqətinə çatdırılır ki, bəs İrəvandakı müsəlman məktəbinin və Bakı şəhərindəki Tağıyev qız gimnaziyasının açılışına nə yolla icazə vermisiniz? Bu sualı Mirzə Cəlil özü ətraflı şəkildə cavablandıraraq, digər bir məsələyə də toxunur: Məgər Asipova xanıma da bu məktəblərdə birinci şəriətə dair proqram qəbul etməyi tapşırıb, onun ərizəsinə çoxdan müsbət cavab vermək olmazdımı? Məqalənin sonu da kəskin suallarla yekunlaşır: "Nə üçün Zaqafqaziya Şeyxülislamı və müftisi Asipova xanımın niyyətinə bu cür soyuq yanaşdılar? Nəhayət, axı kim və nə vaxt bədbəxt müsəlman qızlarının acınacaqlı vəziyyətini yada salıb düşünəcəkdir?".

Göründüyü kimi, Türkoloji Qurultay keçirilməmişdən əvvəlki illərdə ana dilinin tədrisi və əlifba məsələsi ilə bağlı ən çox məqalə yazanlardan biri Cəlil Məmmədquluzadə olmuşdur. Onun "Yeni yol" qəzetinin 28 oktyabr 1922-ci il tarixli 6-cı sayında dərc etdirdiyi bir məqaləsi "Komitə işləri barəsində" adlanır. Olduqca yığcam, xəbər xarakterli bu yazını Mirzə Cəlil "İmzasız" təxəllüsü ilə qələmə almışdır. Xəbər İrəvandan alınmış rəsmi məlumat əsasında hazırlanmış və Ermənistanda yaşayan türklərin yeni əlifbanı bəyəndikləri və qəbul etmələri bildirilir. O da bəyan edilirdi ki, həmin şəhərdə bu əlifbanı yaymaq və öyrətmək məqsədilə xüsusi komitə yaradılmış və ciddi işə başlanmışdır.

Cəlil Məmmədquluzadə belə bir xəbərin Naxçıvandan da gəldiyini və bu komitənin yeni əlifbanı Ordubad və Şərur mahallarında yaşayan türklərin arasında da yaymağı öhdəsinə götürdüyünü qeyd edir. Müəllif vurğulayır ki, bu şəhərlərə göndərilən 300 əlifba kitabçası kifayət etmir, ondan yenə istəyirlər. Bakıda yeni əlifba ilə çıxan qəzet və jurnalın oralara da göndərilməsini xahiş edirlər. Yeni əlifba kitabçasından 12 min nüsxə çap olunmuşdur. Bu az müddətin içində bu qədər kitab satıldığına görə, ikinci dəfə, habelə ikinci hissəsinin də çap olunması komitə iclasında qərara alınıb.

Ərəb əlifbasındakı nöqtələrin çoxluğu Mirzə Cəlili də dərindən düşündürmüş və o, "İmzasız" təxəllüsü ilə 27 yanvar 1923-cü il "Yeni yol" qəzetinin 4-cü sayında çap etdirdiyi "Nöqtələr" adlı kiçikhəcmli məqaləsini bu məsələyə həsr etmişdir. Müəllif bu əlifba ilə yazan müsəlmanların çətinliklərinə də, yəni ərəb hərflərinin yazılış qrafikasının qəlizliyinə də münasibət bildirərək, qeyd edirdi: "Elə söz var ki, ərəb hərfləri ilə o sözü yazanda gərək 44 nöqtə qoyaq: yarısını üstdən, yarısını altdan. Bir vaxtlar İran yazıçıları bu nöqtəbazlıqdan təngə gəlib istədilər acıqla dəxi heç bir nöqtə qoymayalar, yəni lap nöqtəsiz yazalar və çoxları bu məşqə düşdülər, məşhur Mirzə Mehdi xanın "Təxəllüsü" bu cür nöqtəsiz yazılıb. Bunun da nəticəsi o oldu ki, əgər bir şəhərdə savadlı beş nəfərimiz var idisə, indi iki nəfər oldu, o səbəbə ki, daha "tərəssül" xəttin oxuya bilən olmadı".

Ərəb hərflərində nöqtə əngəlinə son qoymaq məqsədilə bəzi türklərin də içindən bu cür hoqqabazların çıxdığını, yəni onların nöqtə əvəzinə sözlərin sonuna bu cür quyruq yapışdıraraq, yeni əlifba kəşf etmək istəyənləri tənqid atəşinə tutaraq Mirzə Cəlil "Yeni əlifba, yeni əlifba!" - şüarı ilə fikrini yekunlaşdırmışdır.

Qüdrətli və peşəkar jurnalist kimi Cəlil Məmmədquluzadənin maarif, mədəniyyət, təhsil sahəsində qələmə aldığı bütün məqalələri dərin milli ictimai məzmuna malik olmaqla, böyük ədibin öz xalqına fədakar ziyalılıq xidmətidir. Bu baxımdan onun "Molla Nəsrəddin" imzası ilə "Yeni yol" qəzetinin 3 mart 1923-cü il 8-ci sayında dərc etdirdiyi "Maarif" adlı məqaləsi olduqca maraqlıdır. Qəzetçi məqalədə şura hökumətinin məşhur maarif komissarlarından biri olan doktor Sultan Məcid Əfəndiyevin maarif barəsində qəzetlərdə dərc etdirdiyi bir məqaləsinə nəzər salmışdır. O, məqalənin səmimi qəlbdən yazıldığını, onda mənalı gülüşün və acı ağlamağın olduğunu bildirmişdir.




...Ay qardaşlar mən ki dilsiz xalq olunmamışam, bu dilləri ağzıma soxursunuz...

Ədib yazının ağlamalı tərəflərinə toxunmadan gülməli və məzəli yerlərini təhlil süzgəcindən keçiririk göstərib: S.Əfəndiyevin məqaləsində çox qəribə səslənən fikirlərdən biri budur ki, hələ inqilabdan qabaq mövcud olan məktəblərin sayı qədər indi bizim məktəbimiz yoxdur. S.Əfəndiyevin məqaləsində çox məzəli səslənən bir cümləni Mirzə Cəlil belə verir: "Müəllimlərimiz tamamən qaçdılar Quba meydanına, çünki 8 aylarla məvacib almırdılar".

Mirzə Cəlil öz həmkarı S.Əfəndiyevin məqaləsindən götürdüyü 3-cü cümləyə daha çox təəccübləndiyini yazıb: "Məktəb kitablarımızı Türkiyənin Kürdüstan və Ərəbistan dilində yazdıqları səbəbindən onların içindən millətimiz bir mətləb çıxara bilmədilər". S.Əfəndiyevin məqaləsinin bəzi ibarələrinə də Mirzə Cəlil toxunaraq Molla Nəsirəddin əminin dilindən öz fikrini belə sona çatdırır: "Özümüzü boş-boşuna mədh və təhsin ilə yox - özümüzü quru tərif və ya yalançı alqışlar ilə yox, məhz acı həqiqəti meydana qoymaq ilə biz maarif evini abad edə bilərik. Qeyri bir yolu yoxdur".

XX əsrin 2-ci onilliyində Azərbaycan dövri mətbuatında əlifba məsələsi ilə bağlı yazılara geniş meydan verilirdi ki, onlardan biri də Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" imzası ilə "Kommunist" qəzetinin 30 dekabr 1923-cü il 296-cı sayında çap etdirdiyi "Behişt əlifbası" sərlövhəli məqaləsidir. Burada yeni latın əlifbası ilə ərəbçilər arasında gedən gərgin mübarizədən bəhs edilir və hadisələrin cərəyan etdiyi məkan kimi İran Azərbaycanı göstərilir. İran Azərbaycanının dindar mollaları belə düşünürlər ki, cənnət əhlinin dili ərəb, cəhənnəm əhlinin dili isə yeni latın əlifbasıdır və buna görə də kim cənnətə düşmək istəyirsə, ərəb əlifbasını, cəhənnəmə getmək istəyənlər isə latın əlifbasını öyrənsin.

Bu fikirlər İranın Rəşt şəhərində çıxan "Nidayi-Gilan" qəzetində Ağaye Əli Hürrəm tərəfindən səsləndirilmişdir və orada göstərilir ki, Azərbaycanda latın əlifbasını icad edən bolşeviklərdir və onların məqsədi Azərbaycan türklərini digər türk ölkələrindən və müsəlmanlardan ayırmaqdır.

Məqalədə əksini tapan bütün nöqsanlara və korafəhimliliyə münasibət bildirən Mirzə Cəlil İranda fars şovinistlərinin, Tehran hökumət məmurunun yaramaz əməllərindən, doğma dilimizə düşmən münasibətindən bəhs edərək yazırdı: "Bu ustalar ibarətdilər Tehran hökumətinin İran Azərbaycanında əyləşən varlı və qeyri məmurlarından: bunlar hamısı farslardır və fars dilindən özgə bir dil tanımırlar. İstər Mərənddə olsun, istər Culfada, istər Astara, ya Zunuzda, heç bir kəsin hünəri deyil həmin məmurların yanında bir kəlmə türk sözü danışsın və yazsın. Hələ İran Azərbaycanı səhldir: Naxçıvan, Gəncə, Bakını da tehrançılar fars ölkəsi və burada yaşayan xoşbəxt müsəlmanları elə fars adlandırırlar. Əgər bolşeviklərin batində fikirləri bizi bir-birimizdən ayırmaqdır, bunu yeri-göyü yox yerdən yaradan bir Allah bilir, bəs sən Tehran hökumətinin qıpqırmızı politikasına niyə bir söz demirsən ki, hazır qıpqırmızı bizim Araz otayının Zunuz və mərəndli qardaşlarımızı fars eləmək istəyirlər. Hə, əgər sən düz adamsan, bəs bu işə niyə dinmirsən?" .

Milli dramaturgiyanın təməlini qoymuş Mirzə Fətəli Axundovun ölümünün 50 illiyi münasibətilə də Cəlil Məmmədquluzadə bir neçə məqalə yazmışdır. Onlardan biri də ədibin "Şərq qadını" jurnalında dərc etdirdiyi "Mirzə Fətəli Axundov və qadın məsələsi" sərlövhəli məqaləsidir. Məqalədə Mirzə Fətəlinin komediyalarının mövzu mündəricəsindən bəhs edilməklə bərabər, onun Şərq qadınlarının tez və sürətlə savadlanması üçün tərtib etdiyi bir əlifbadan da qısa şəkildə danışılmışdır.

Yazıda qeyd olunmuşdur: "Necə ki, məlumdur, Mirzə Fətəli köhnə ərəb əlifbasını müsəlmanların tənəzzülünə mərbut tuturdu və yeni, mükəmməl bir əlifbanın təşkili yolunda Qafqazda, hətta İstanbulda və Tehranda ciddi bir iqlamat başlamışdı. Təkcə bu keyfiyyət, Mirzənin bircə bu təşəbbüsü kafi ola bilərdi ki, fanatik müsəlmanlar xaçpərəstlərin latın hürufatını Quranın "müqəddəs" hürufatına tərcih verən bir kəsi laməzhəb və mürtəd adlandıraydılar".

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da əksər əyalətlərdə məktəblərin açılmaması Mirzə Cəlilin tənqid hədəfinə çevrilirdi. Onun bu baxımdan tərsinəsöyləmə manerası ilə qələmə alıb "Molla Nəsrəddin" jurnalının 24 dekabr 1922-ci il 7-ci sayında çap etdirdiyi "Gözəl yerlər" adlı məqalə xüsusi önəm kəsb edir. Ədibin yazdığına görə, Bakı mahalının Xızı əylətinin Zibər kəndində 60, Upada 40, Gərmiyəndə 60, Çarqışlaqda 50, Qululuda 60, Sərgəhdə 40, Biləsəndə 35, Dəllərdə 35, Pəmbədə 35, Xildə 70 ev olmasına baxmayaraq, bu 15 kəndin heç birində bir dənə də məktəb fəaliyyət göstərmir.

Bu kəndlərin 4 nəfərdən ibarət mollası bu yerlərin başbilənləri və savadlıları hesab olunurlar. Bir tərəfdən bu mollalar, digər tərəfdən Lahıc seyidləri bu kəndlərin camaatının yaxasından yapışaraq "ver-ver" deyərək onların gönünü soyurlar. Mirzə Cəlil satirik planda bunları yerli camaatın savadsızlığı, məktəbsizliyi ilə əlaqələndirərək göstərir: "Molla deyir: – Verməsən səni behiştə qoymayacağam gedəsən. Seyid deyir: – Verməsən bir dua edəcəyəm cəddim sənə qənim olsun. Kəndli də verir, çünki çarəsizdir. Bu da ki, məktəbsizlikdəndi".

Yazıçı məqalədə Xızı camaatının bir tərəfdən Molla Qiyam, Molla Qivam, Molla Hüseyn və Molla Əbdüləli tərəfindən, digər tərəfdən isə Lahıc seyidləri tərəfindən aldadılaraq, cəhalətdə saxlanmalarına kəskin etirazını bildirərək, Bakı mahalının maarif idarəsinin nə fikirdə və nə ilə məşğul olduqları barədə sualla yazısını sona çatdırır.

Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının 20 yanvar 1923-cü il 10-cu sayında "Molla Nəsrəddin" imzası ilə dərc etdirdiyi "İki xəbər" adlı məqaləsində kəndlilərdən ötrü türk dilində çıxmaqda olan "Əkinçi" qəzetinin fəaliyyətinin dayandırılmasından, Türk Teatrına ayrılan məvacibin azaldılmasından danışaraq, Mozalan və Dəli ilə dioloqlarını satirik səpkidə qurmuşdur. O bu işlə bağlı əlaqədar təşkilatları kəskin ifşa obyektinə çevirərək, yazının yekununda göstərmişdir: "Demək haman bihudə xərclərin biri "Əkinçi" ruznaməsi idi ki, bilmərrə yox elədilər. Qaldı Hökumət Türk Teatrı. Bu da heç əslində olmasa, heç kəsin halına təfavüt etməz. Təvəqqi olunur bizdən inciməyəsiniz. Çünki doğrudur, çox yerlərə və çox idarələrə milyard-milyard pullar xərclənib və yenə xərclənəcək; amma "Əkinçi" ruznaməsinə pul çatmadı. Bunlar hamısı gözəgörünməz Allahın məsləhətidir. Biz aciz bəndələr bundan baş aça bilmərik".

Ümumiyyətlə, görkəmli ədibin "Köhnə müəllim" imzası ilə "Yeni yol" qəzetinin 27 yanvar - 3 fevral 1923-cü il 4 və 5-ci saylarında dərc etdirdiyi "Uşaqlarımız" məqaləsində məktəb və təhsil, "Cırcırama" imzası ilə "Molla Nəsrəddin" jurnalının 12 may 1923-cü il 23-cü sayında çap etdirdiyi "Mətbəələr" adlı məqaləsində qəzetlərin və kitabların çapı , "Molla Nəsrəddin" jurnalının həmin tarixdəki və həmin sayındakı "Müəllim" sərlövhəli məqaləsində Bakı Maarif Şöbəsinin yarıtmaz işləri tənqid edilmişdir.

"Molla Nəsrəddin" jurnalının 8 sentyabr 1923-cü il 31-ci sayındakı "Savad məktəbləri" adlı məqaləsində fəhlə və kəndlilərin savad məktəblərinə maraqlarının az olmasının səbəbləri, 19 sentyabr 1923-cü il 34-cü sayındakı "Maarif işləri" məqaləsində təhsil sahəsində çalışanların yeni üsulla işləməmələri, 13 aprel 1924-cü il 6-cı sayındkı "Təzə əlifba" sərlövhəli məqaləsində yeni latın əlifbasının üstünə hücum çəkilməsi, 20 dekabr 1924-cü il 28-ci sayındakı "Kitab məsələsi" məqaləsində mətbəə xərclərinin bahalaşmasından bəhs etməsi yazıçının Türkoloji Qurultayın qaldırdığı məsələləri irəlicədən görüb ictimailəşdirməsini göstərir.

Ədib 1917-ci ildən 1926-cı ilə qədər olan dövrdə I Türkoloji Qurultayda qoyulan məsələləri əvvəlcədən ciddi və satirik planda müzakirəyə çıxarmış və bununla da Qurultayda qoyulan məsələlərə öncədən öz dəstəyini göstərmişdir. Cəlil Məmmədquluzadə Azərbaycanda mədəni inqilabı ürəkdən alqışlayan mütəffəkkirlərimizdən biri olmuşdur. O, I Türkoloji Qurultayda da qeyri-rəsmi şəkildə iştirak etmiş və oxunan məruzələri və çıxışları maraqla dinləmişdir. Yazıçı məclisin qətnamələrindən razı qalmışdır.

***Mahirə HÜSEYNOVA***
***filologiya elmləri doktoru, professor***

# Leyla Əliyevanın təşəbbüsü ilə uşaq evlərinin komandaları arasında növbəti minifutbol turniri






**Oktyabrın 30-da uşaq evlərində tərbiyə alan 10-11 və 12-13 yaş arası oğlan və qızlardan ibarət komandalar arasında növbəti "Dostluq Kuboku" minifutbol turniri keçirilib. Turnir uşaqların fiziki və psixoloji inkişafına dəstək vermək, onlarda komanda ruhunu, özünəinamı və sosial bacarıqları gücləndirmək məqsədi daşıyıb.**

Turniri Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva da izləyiblər.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təşkilatçılığı ilə baş tutan yarışda Sosial Xidmətlər Agentliyinin nəzdində fəaliyyət göstərən Bakı şəhər 1, 2, 3 və Gəncə şəhər 4 saylı Uşaq evlərinin komandaları müvafiq olaraq hər iki yaş qrupu üzrə "Şahinlər", "Birlik", "Zəfər" və "Kəpəz" adları ilə güclərini sınayıblar. Qızlar və oğlanlar arasında yüksək idman əzmi və dostluq münasibəti müşahidə olunub. Oyunlar zamanı həm uşaqların, həm də matçları izləyənlərin böyük coşqu və sevinc yaşadıqları diqqət çəkib.

Turnirin ən yaddaqalan anlarından biri oyunları izləyən Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyevanın bütün komandaları dəstəkləmələri, uşaqlarla səmimi söhbət etmələri və onlarla şəkillər çəkdirmələri olub. Onlar iştirakçılara uğurlar arzulayaraq, belə tədbirlərin gələcəkdə daha geniş miqyasda və mütəmadi şəkildə keçirilməsinin vacibliyini bir daha vurğulayıblar.

Hər iki yaş qrupu üzrə qalib komandalar diplom, medal və kubokla təltif olunub. Eyni zamanda, ikinci və üçüncü yerləri qazanan komandalar da medal və diplomlarla mükafatlandırılıb.

Tədbirin sonunda uşaqlar, tərbiyəçilər və təşkilatçılar belə təşəbbüslərin uşaqların həyatına müsbət təsir etdiyini bildirərək, uşaqlarda özünəinamın və sosial əlaqələrin güclənməsinə səbəb olduğunu diqqətə çatdırıblar. Onlar bu cür sosial layihələrin davamlı təşkilinə görə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, "Dostluq Kuboku" minifutbol turniri ilk dəfə bu ilin mayında təşkil olunub və hazırkı yarış həmin ənənənin uğurlu davamı kimi reallaşdırılıb.

Minifutbol turnirinin təşkilində əsas məqsəd sosial xidmət müəssisələrində böyüyən uşaqlar arasında sağlam həyat tərzinin və fiziki fəallığın təşviqi ilə yanaşı, onların cəmiyyətə inteqrasiyasına dəstək olmaq, yeni dostluqların qurulmasına şərait yaratmaqdır.

*"Xalq qəzeti" redaksiyasına*

# "Əziz Əliyevin heykəli hardadır?"



**Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü, şair-dramaturq Hidayət Orucov milli ədəbiyyatımızın görkəmli simalarındandır.**

O, ədəbiyyat, incəsənət, kitab mədəniyyəti məsələləri, millətlərarası münasibətlər, din, milli-mənəvi dəyərlərimiz barədə, eyni zamanda tarixi keçmişimizə, türk xalqlarının deportasiyası və soyqırımlarına, yaşadığımız günlərin problemlərinə həsr olunmuş 150-dən çox məqalənin, publisist qeydlərin müəllifidir. Hidayət Orucovun "Heydər Əliyev və Azərbaycanda milli siyasət" monoqrafiyası ingilis, rus, gürcü, türk, ərəb, qırğız dillərində də nəşr olunub.

Ədəbi tənqid və publisistika janrında yazılar yazan, Azərbaycan mədəniyyəti və milli kimliyi mövzularında çıxışlar edən Hidayət Orucovun pyesləri Azərbaycan və İrəvan teatrlarında səhnəyə qoyulub, teatr mütəxəssisləri və tamaşaçılar tərəfindən müsbət qiymətləndirilir.

Hidayət Orucovun son dövrdəki yaradıcılıq nümunələri də hər zaman olduğu kimi, maraqlı və diqqətçəkəndir. Bu yaxınlarda onun "Əziz Əliyevin heykəli hardadır?" adlı maraqlı yazısı dərc olunub. Görkəmli dövlət xadimi Əziz Əliyevin müxtəlif illərdəki fəaliyyətinə həsr olunmuş yazının sonunda Hidayət Orucov Əziz Əliyevin heykəlinin ucaldılmasını tövsiyə edərək, müvafiq orqanlar qarşısında vəsatət qaldırır.

Azərbaycan Teatr Xadimləri İttifaqı ölkəmizin inkişafında müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərin adlarının əbədiləşdirilməsini dəstəkləyir və Hidayət Orucovun «Əziz Əliyevin heykəli hardadır?» yazısını müsbət qiymətləndirir.

***Hacı İSMAYILOV,***
***Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti, Dövlət mükafatı laureatı***

# Qəbələdə "Gənc arıçı" layihəsi




**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qəbələ rayonunda "Gənc arıçı" layihəsinin iştirakçılarından biri olan, Mıxlıqovaq kəndində yaşayan Qafarovlar ailəsinin qonağı olub.**

Görüş zamanı ailə üzvləri ilə səmimi söhbət edilib, onların layihə çərçivəsində qazandıqları təcrübə və gələcək planları ilə yaxından maraqlanılıb. Ailə üzvləri bu layihənin həyata keçirilməsi təşəbbüsünə, eləcə də Leyla Əliyevanın şəxsən ziyarətinə görə səmimi minnətdarlıqlarını bildiriblər.

Gənc arıçı Lalə Qafarova ötən il 40 kiloqram, bu il isə 100 kiloqram bal istehsal edib. O, həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə ötən ay Kəlbəcərdə keçirilən Bal Festivalında "Gənc arıçı" layihəsinin iştirakçısı qismində çıxış edərək öz məhsullarını alıcılara təqdim edib.

***XQ***

# Heydər Əliyev Fondunun dəstəyi ilə alınan musiqi alətlərinin təqdimatı




**Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Mədəniyyət Nazirliyinin tabeliyində olan musiqi məktəbləri üçün yeni musiqi alətləri alınıb. Layihə musiqi məktəblərinin inkişafına, gənc istedadların daha keyfiyyətli təhsil almalarına və musiqi mədəniyyətinin gələcək nəsillərə ötürülməsinə xidmət edir.**




Heydər Əliyev Mərkəzində keçirilən təqdimat mərasimində layihə çərçivəsində alınan musiqi alətləri nümayiş olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva tədbirdə iştirak ediblər.




Layihə çərçivəsində Bakı ilə yanaşı, regionlardakı bir sıra musiqi məktəbləri üçün 11 adda 70-dən çox musiqi aləti alınıb. Bunların sırasında tar, kamança, qanun, nağara kimi milli alətlərlə yanaşı, skripka, violonçel, royal, pianino və digərləri yer alır. Bu musiqi alətləri həm yerli ustaların əl işləri, həm də musiqi alətlərinin istehsalı sahəsində dünyanın aparıcı ölkələrindən sifariş olunan nümunələrdir. O cümlədən "Carlovy" violonçel və skripkaları, Avropanın akustik piano və royalların istehsalı sahəsində başlıca firması olan "Petrof" royalları, "Yamaha" pianoları bu musiqi alətləri sırasındadır.

Təqdimat mərasimində çıxış edən mədəniyyət naziri Adil Kərimli Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihənin paytaxt və regionlardakı musiqi məktəblərində təhsilin inkişafına dəstək baxımından əhəmiyyətindən danışıb. Heydər Əliyev Fondunun mədəniyyətə, mədəniyyət və incəsənət xadimlərinə, xüsusilə də gənc istedadların inkişafına və təhsilinə göstərdiyi daimi dəstəyə görə təşəkkürünü bildirib.

Sonra Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi məktəblərinin şagirdlərinin iştirakı ilə konsert olub.

# "Art Weekend" çərçivəsində "Əcdadlar" sərgisi



**Oktyabrın 30-da İçərişəhərdəki "Q Gallery"də "Əcdadlar" sərgisi açılıb. Sərgi Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə paytaxtda keçirilən "Art Weekend"ə daxil edilən ekspozisiyalardandır.**



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva sərgi ilə tanış olublar.

Burada Azərbaycan sənətinin müasir nümayəndələri – Faiq Əhməd, Rəşad Ələkbərov, Orxan Hüseynov və Fərid Rəsulov öz yaradıcılıqları vasitəsilə keçmişin izlərini bu günə gətirərək, ziyarətçilərə milli ruhun dərin qatlarını yenidən hiss etdirməyə çalışır.

Sərgidə üç əsərinin nümayiş olunduğunu bildirən Rəşad Ələkbərov hər birinin atalar sözündən ilhamlanaraq ərsəyə gəldiyini, rəsmlərdə onlara olan baxış bucağının əks olunduğunu diqqətə çatdırıb.

Rəssam Fərid Rəsulov əsərlərində yağlı və sulu boyalardan istifadə etdiyini bildirib. İşlərində əcdadlarımızın kultu olan qoyun haqqında danışan rəssam bütün dövrlərdə bu heyvanların bizim yaşam tərzimizin bir hissəsi olduğunu qeyd edib.

Güclü və fərqli bədii ifadələr vasitəsilə "Əcdadlar" ziyarətçiləri yaddaş, ənənə və mədəni irs qatlarından keçən düşüncəyə dəvət edir. Bu sərgi bizi bu davamlı silsilə içindəki yerimiz barədə düşünməyə, həmçinin bir gün bizim də gələcək nəsillərin formalaşmasında zəncirin bir halqasına çevriləcəyimizi xatırlamağa çağırır.

"Əcdadlar" sərgisi hər bir fərdin mənsub olduğu nəsillər zəncirindəki yerini dərk etməyə, gələcək nəsillərin formalaşmasında da iz buraxacağımızı xatırlamağa çağırır. Eyni zamanda, sərgi məkanın – yəni, torpağın – təkcə həyat beşiyi deyil, həm də sükutla əcdadlarımızın izlərini qoruyan bir yaddaş daşıyıcısı olduğunu vurğulayır.

# ABŞ və Çin liderlərinin Pusan görüşü nəyi dəyişdi?

**ABŞ Prezidenti Donald Tramp və Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında Cənubi Koreyanın Pusan şəhərində keçirilən görüş beynəlxalq medianın diqqət mərkəzinə çevrilib. Trampın ikinci prezidentlik müddətində baş tutan bu ilk birbaşa təmas tərəflər arasında ticarət və təhlükəsizlik məsələlərinə dair gərginliyin fonunda keçirilib. Görüşdən sonra Tramp danışıqları "möhtəşəm" adlandıraraq, Çin liderinə "12 baldan 12" qiymət verdiyini bildirib.**



Amerika prezidentinin açıqlamasına əsasən, ABŞ Çin mallarına tətbiq edilən tarifləri azaldacaq, qarşılığında isə Çin ABŞ-a fentanil komponentlərinin ixracını dayandırmaq öhdəliyini götürəcək. Eyni zamanda, Pekin Amerika soya paxlasının idxalını bərpa edəcək və nadir torpaq metallarının ixracına qoyulan məhdudiyyətləri aradan qaldıracaq.

Bununla belə, ekspertlər hesab edirlər ki, Trampın bəyan etdiyi "qələbə", əslində, siyasi jest xarakteri daşıyır. ABŞ lideri seçkiqabağı dövrdə Çinlə münasibətləri stabilləşdirmək və daxildə iqtisadi gərginliyi azaltmaq istəyir. Lakin bu dəfə də fundamental məsələlər – texnoloji məhdudiyyətlər, ticarət balansı və strateji asılılıq mövzuları açıq qalıb. Si Cinpin isə, sadəcə əvvəlki mövqelərə qayıdaraq, heç bir ciddi güzəştə getməyib. Nəticədə Tramp ticarət müharibəsində əsas alət sayılan tarif siyasətini yumşaldıb.

Ukrayna münaqişəsi də müzakirə mövzusu olub. Prezident Tramp bildirib ki, danışıqlarda Ukrayna müharibəsi "əməkdaşlıq kontekstində" müzakirə olunub və tərəflər bu məsələ üzrə "birgə işləmək" barədə razılığa gəliblər. Tayvan məsələsi isə gündəmdə olmayıb. Bu, müşahidəçilərə görə, Vaşinqtonun Pekinlə münasibətləri korlamamaq niyyətindən xəbər verir.

Qlobal medianın reaksiyası müxtəlif olub. Məsələn, The New York Times (ABŞ) yazır ki, Tramp faktiki olaraq Çinlə ticarət müharibəsini uduzub: "ABŞ yalnız iqtisadi deyil, həm də geosiyasi təsirini itirir". "Sinxua" agentliyi (Çin) isə görüşü "Çin-ABŞ münasibətlərinin nəhəng gəmisinin sabit irəliləməsi" kimi dəyərləndirib və iki ölkənin "tərəfdaş kimi davranmasının tarixi zərurət" olduğunu vurğulayıb. Frankfurter Allgemeine Zeitung (Almaniya) Trampın siyasətini "ideologiya və instinkt arasında tərəddüd edən" xətt kimi xarakterizə edərək, Çin tərəfinin bu qarşıdurmadan güclənərək çıxdığını qeyd edir. The Times (Böyük Britaniya) isə yazır ki, "görüş ticarət müharibəsi qorxularını azaldıb və qlobal bazarlara müəyyən dərəcədə rahatlıq gətirib".

Bir sözlə, Pusan görüşü göstərdi ki, ABŞ-Çin münasibətləri strateji rəqabət çərçivəsində davam etsə də, tərəflər açıq qarşıdurmadan qaçmağa çalışırlar. Görüşün əsas nəticəsi odur ki, ABŞ və Çin rəqabəti ideoloji deyil, iqtisadi və texnoloji üstünlük uğrunda mübarizə mərhələsinə keçib. Tərəflər arasındakı "yeni normallıq" - qarşılıqlı asılılıq və məhdud əməkdaşlıq - yaxın illərdə qlobal nizamın formalaşmasına mühüm təsir göstərəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Medianın İnkişafı Agentliyi jurnalistlər üçün müsabiqə elan edib

Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin əsas şərti müsabiqə elan olunan günədək son 3 aylıq dövr ərzində dərc olunmuş və ya yayımlanmış materialı təqdim etməkdir.

Müsabiqəyə təqdim edilən materiallar:

Jurnalist müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində çap mediası və onlayn media subyektində dərc olunmuş hər hansı bir yazısını aşağıdakı nominasiyalardan yalnız biri üzrə müsabiqəyə təqdim edir:

*– ən yaxşı reportaj;*
*– ən yaxşı ictimai-siyasi təhlil;*
*– ən yaxşı sosial-iqtisadi təhlil;*
*– ən yaxşı müsahibə;*
*– ən yaxşı mədəniyyət materialı;*
*– ən yaxşı köşə yazısı;*
*– ən yaxşı jurnalist araşdırması;*
*– ən yaxşı oçerk.*

Jurnalist müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində audiovizual media subyektində yayımlanmış və həcmi (xronometrajı) ən çoxu 5 (beş) dəqiqə olan süjetini aşağıdakı nominasiyalardan yalnız biri üzrə müsabiqəyə təqdim edir:

*– ən yaxşı ictimai-siyasi reportaj;*
*– ən yaxşı sosial-iqtisadi reportaj;*
*– ən yaxşı tematik (idman, mədəniyyət və s.) reportaj.*

Materialların qiymətləndirilməsi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 (üç) müstəqil ekspert tərəfindən həyata keçirilir.

Müsabiqənin yekununda yazılar üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə 5 (beş) jurnalist, süjetlər üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə isə 5 (beş) jurnalist və 5 (beş) operator qalib elan edilir və mükafatlandırılır.

Müsabiqəyə müraciət qəbulu 2025-ci il noyabrın 7-si saat 18:00-dək davam edəcək.

*Xuntaçıların məhkəməsi*

# Ermənistan hərbçiləri insanlıq simasını itirmişdilər

*8 azərbaycanlı əsir-girovun qətlə yetirilməsi, 37 nəfərin yoxa çıxması sübuta yetirildi*

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 30-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs Davit İşxanyanın vəsatəti əsasında 2020-ci ildə Tovuz hadisələrindən sonra lentə alınmış videomaterial tədqiq olunub. O, video sənədlə bağlı bildirib ki, qondarma qurumun "nümayəndələri" Ermənistan Respublikasında keçirilən hərbi tədbirlərə daim dəvət olunurdu.



Növbəti tədqiq edilən sənəd təqsirləndirilən şəxs L.Mnatsakanyanın Şuşada Cıdır düzündə erməni jurnalistə verdiyi müsahibə olub. O, jurnalistin sualına cavabında deyir: "Yaşma briqadası"nın 400-ə yaxın itkisi var".

Sonra təqsirləndirilən şəxs Bako Sahakyanın müdafiəçisi Nigar Mirbabayevanın məhkəməyə təqdim etdiyi material nümayiş etdirilib.

Bu, 2020-ci il dekabrın 1-də Arkadi Qukasyan və Bako Sahakyanın Vətən müharibəsi zamanı fəaliyyətləri ilə bağlı internetdə dərc olunan məqalə olub. Material tərəflərin iştirakı ilə tədqiq edilib.

Bundan sonra iclasa sədrlik edən Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının Baş Prokurorluğun İstintaq İdarəsinə göndərdiyi məktubu elan edib. Məktubda göstərilir ki, komissiyada toplanmış məlumatlara əsasən, Birinci Qarabağ müharibəsi zamanı əsir və girov götürülmüş 54 Azərbaycan vətəndaşından 17-sinin meyiti qaytarılsa da, 37 nəfər Ermənistan hərbçiləri tərəfindən zorakı şəkildə yoxa çıxarılıb, meyitləri qaytarılmayıb.

Qeydlərlə bağlı tərtib edilmiş məlumat da məhkəmədə elan olunub. Həmin məlumatda 1994-cü il yanvarın 29-da 8 nəfər azərbaycanlı əsir və girovun öldürüldüyü qeyd olunur. Tuqay Rəhimli çıxış edərək bildirib ki, təqsirləndirilən şəxs Bako Sahakyan istintaq materiallarında vaxtilə əsir-girovlarla əlaqədar məsələlərlə məşğul olduğunu vurğulayıb.

Sonra məhkəmə iclasında zərərçəkmiş şəxslərin və zərərçəkmiş şəxslərin hüquqi varislərinin ifadələri elan olunub. Şükürov Mahmud Sabir oğlunun ifadəsində bildirilib ki, 2022-ci il sentyabrın 13-də Zəngilan rayonunun ərazisində düşmən tərəfindən atılan əl qumbarasının partlaması nəticəsində Fərid Rüstəmov həlak olub, eləcə də o, Fərid Məmmədov, Saleh Həsənov, Təbriz Ramazanov bədən xəsarətləri alıblar. Ələkbərli Kənan Müşfiq oğlunun hüquqi varisi Ələkbərova Fəxriyyə Xəlil qızı ifadəsində qeyd edib ki, 2020-ci il oktyabrın 10-da övladının Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində şəhid olduğu xəbərini eşidib.

Bəbirli Asif Oktay oğlunun ifadəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 28-də Göygöl rayonu ərazisinə açdıqları atəş nəticəsində o, Elvin Səlimov, Kamran Hüseynov, Rəşad Novruzov, Mustafa Məmmədov, Rəşad Abdullayev yaralanıb, Orxan Daşdəmirov isə həlak olub.

Zərərçəkmiş Məmmədov Mail Məhəmmədəli oğlu ifadəsində göstərib ki, 1992-ci il oktyabrın 21-də Ağdərə rayonunun Sırxavənd kəndində Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb, saxlanıldığı kameralarda dəfələrlə işgəncələrə məruz qalıb.

Zərərçəkmiş, 1957-ci il təvəllüdlü Xocalı şəhər sakini Əliyeva Məlahət Əhməd qızının elan olunan ifadəsinə əsasən, 1992-ci il fevralın 25-də Ermənistan hərbçiləri Xocalı şəhərini mühasirəyə alıb əhalini güllələyib, şəhərə od vurublar. Ermənistan hərbçiləri Ağdama gedən yolda insanları atəşə tutub, xeyli mülki şəxs öldürülüb. Ətraf çoxlu qadın, uşaq, qoca insanların meyitləri ilə dolu olub. Onun doğmaları da qətlə yetirilib.

Qarayev Cəbrayıl Xasay oğlu ifadəsində qeyd edib ki, 1993-cü il iyulun 20-də yaşadığı Ağdam rayonunun Qiyaslı kəndinə hücum zamanı Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən girov götürülüb, uzun müddət soyuq beton döşəmənin üstündə ac-susuz qalıb, işgəncələrə, pis rəftara məruz qalıb.

Zərərçəkmiş Məmmədov Vahid Abasqulu oğlu ifadəsində göstərib ki, o, Ermənistanın Mehri rayonunda dəmir yolunda fəhlə işləyib. 1991-ci il dekabrın 6-da briqadir Qardaşov Etibar Fərman oğlu, operator Cavadov Fazil Ağa oğlu, operator köməkçisi Nəbiyev Cavad Qurban oğlu, fəhlələr Rəhimov Valeh Mirsadiq oğlu, Heydərov Tofiq Sadiq oğlu, Yusifzadə Bədəl Haşım oğlu, Qubadov Etibar Ənvər oğlu və Məmmədov Məmmədhüseyn Cəfərqulu oğlu ilə birlikdə Mehri çayı adlanan ərazidə girov götürülüblər, işgəncələrə, qeyri-insani və pis rəftara məruz qalıb.

Məhkəmə iclası digər ifadələrin oxunması ilə davam etdirilib.

***XQ***


# Azərbaycan İdman Akademiyası

*aşağıdakı fakültə dekanı və professor-müəllim vəzifələrinə*

MÜSABİQƏ ELAN EDİR

***FİZİKİ TƏRBİYƏ FAKÜLTƏSİ***
Fakültə dekanı – 1 ştat

***İDMAN FAKÜLTƏSİ***
Fakültə dekanı – 1 ştat

***SAĞLAMLIQ VƏ MENECMENT FAKÜLTƏSİ***
Fakültə dekanı – 1 ştat

***FƏRDİ İDMAN NÖVLƏRİ KAFEDRASI***
Sərbəst güləş ixtisası üzrə professor – 1 ştat
Üzgüçülük ixtisası üzrə professor – 2 ştat
Sərbəst güləş ixtisası üzrə dosent – 1 ştat
Cüdo ixtisası üzrə dosent – 1 ştat
Atletika ixtisası üzrə dosent – 6 ştat
Alpinizm ixtisası üzrə dosent – 1 ştat

***KOMANDA İDMAN NÖVLƏRİ KAFEDRASI***
Basketbol ixtisası üzrə professor – 2 ştat
Gimnastika ixtisası üzrə professor – 1 ştat
Velosiped ixtisası üzrə professor – 1 ştat
Güllə atıcılığı ixtisası üzrə professor – 1 ştat
Voleybol ixtisası üzrə dosent – 2 ştat
Şahmat ixtisası üzrə dosent – 1 ştat
Həndbol ixtisası üzrə dosent – 2 ştat
Basketbol ixtisası üzrə dosent – 1 ştat
Mütəhərrik oyunlar ixtisası üzrə dosent – 1 ştat
Kamandan oxatma ixtisası üzrə dosent – 1 ştat
Futbol ixtisası üzrə dosent – 1 ştat
Gimnastika ixtisası üzrə dosent – 1 ştat

***SAĞLAMLAŞDIRICI İDMAN VƏ REABİLİTASİYA KAFEDRASI***
Kafedra üzrə professor – 3 ştat
Kafedra üzrə dosent – 8 ştat

***FİZİKİ HAZIRLIQ KAFEDRASI***
Fiziki tərbiyə nəzəriyyəsi və metodikası fənni üzrə dosent – 5 ştat
İdman qurğuları və trenarjorları fənni üzrə müəllim – 2 ştat
Adaptiv bədən tərbiyəsi fənni üzrə müəllim – 1 ştat

***MENECMENT VƏ ÜMUMİ FƏNLƏR KAFEDRASI***
Ali riyaziyyat fənni üzrə dosent – 1 ştat
İdman menecmenti fənni üzrə dosent - 2 ştat
Xarici dildə (rus dili) işgüzar və akademik kommunikasiya fənni üzrə dosent – 2 ştat
Xarici dildə (ingilis dili) işgüzar və akademik kommunikasiya fənni üzrə baş müəllim – 13 ştat
Xarici dildə (alman dili) işgüzar və akademik kommunikasiya fənni üzrə baş müəllim – 1 ştat
Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənni üzrə baş müəllim – 2 ştat
İdman metrologiyası fənni üzrə baş müəllim – 1 ştat
İqtisadiyyat fənni üzrə baş müəllim – 1 ştat
İdman jurnalistikasının əsasları fənni üzrə baş müəllim – 1 ştat
Ali riyaziyyat fənni üzrə baş müəllim – 1 ştat
İdman menecmenti fənni üzrə baş müəllim – 1 ştat

***HUMANİTAR FƏNLƏR KAFEDRASI***
Pedaqogika fənni üzrə dosent – 1 ştat
Psixologiya fənni üzrə dosent – 1 ştat
Sosiologiya fənni üzrə dosent – 1 ştat
Azərbaycan tarixi fənni üzrə müəllim – 1 ştat
Pedaqogika fənni üzrə müəllim – 1 ştat
Multikulturalizm fənni üzrə müəllim – 1 ştat

Sənədlər müsabiqə elan edildiyi gündən bir ay ərzində təqdim oluna bilər. Məlumat telefonu: 012-564-33-75

***REKTORLUQ***



# "Sumqayıt Tikiş" ASC səhmdarlarının nəzərinə!

20 dekabr 2025-ci il saat 13.00-da "Sumqayıt Tikiş" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** ASC-nin idarəetmə orqanlarının 2024-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.

**2.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Yığıncağın gündəliyindəki məsələlərə aid materiallarla iş günlərində ASC-nin rəhbərliyinə müraciət etməklə tanış olmaq mümkündür.

Nəzərinizə çatdırırıq ki, ASC uzun müddət fəaliyyət göstərməmiş və hazırda da fəaliyyət göstərmir. Bu barədə keçmiş Vergilər Nazirliyinin müvafiq rəsmi sənədi vardır.

Ünvan: Sumqayıt şəhəri, kottec, 24-cü məhəllə, 1-ci keçid 38 A. ASC-nin inzibati binası.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 233 (30927) 31 oktyabr 2025-ci il, cümə

## İDMAN

### Ağırlıqqaldıranlarımızın 3 Avropa medalı



**Ağırlıqqaldırma üzrə yığma komandamızın üzvü Tehran Məmmədov Albaniyanın Dürres şəhərində keçirilən Avropa birinciliyində 3 gümüş medal qazanıb.**

Azərbaycan Ağırlıqqaldırma Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, 65 kq çəki dərəcəsində mübarizə aparan Tehran birdən qaldırma hərəkətində 133 kq çəkini ram etməyi bacarıb. Təkanla qaldırma hərəkətində 155 kq ağırlığı başı üzərinə qaldıran Məmmədov toplamda 288 kq nəticə göstərib. Beləliklə, birdən və təkanla qaldırma hərəkətlərinin uğurlu icrasına görə 2 gümüş mükafat qazanan Tehran Məmmədov toplamda da fəxri kürsünün ikinci pilləsinə yüksəlib. Mükafatçılara medalları Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının "Məsləhət Qrupu"nun üzvü və Azərbaycan Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov təqdim edib.

### Serbiyada 7 güləş medalı



**Serbiyanın Novi Sad şəhərində keçirilən U23 Dünya çempionatında güləşçilərimiz 7 medal qazandı.**

Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, oktyabrın 20-dən 27-dək davam edən ilin son mundialında təmsilçilərimiz 3 qızıl, 1 gümüş və 3 bürünc medal əldə etməklə tarixi uğura imza atdılar. Belə ki, bu nəticə 2017-ci ildən indiyədək keçirilən U23 dünya çempionatların tarixi boyunca medalların əyarına görə ən yaxşı nəticəmizdir.

Bu yarışda Azərbaycan Yaponiya (6-1-3), İran (5-2-5) və ABŞ-dan (5-2-4) sonra 4-cü yeri tutdu.

Xatırladaq ki, Novi Sadda Elmir Əliyev (55 kq), Ziya Babaşov (63 kq) və Kənan Heybətov (70 kq) dünya çempionu olub. Xetaq Karsanov (125 kq) gümüş medal qazanıb. Ruslan Nurullayev (72 kq), Günay Qurbanova (59 kq) və Ali Tsokayev (86 kq) isə fəxri kürsünün 3-cü pilləsinə yüksəliblər.

### 2 gündə 55 qol medalı



**Azərbaycanın qol güləşçiləri Bakıda təşkil olunan dünya çempionatında iki gündə 55 medal qazanıblar.**

Millimizin baş məşqçisi Samir Babayev bildirib ki, hazırda yarış davam edir. İlk iki gündə 12-si qızıl, 24-ü gümüş, 19-u bürünc olmaqla, ümumilikdə, 55 medal qazanmışıq. Gənclərdən ibarət komandamız dünyanın ən güclüsü olub. Bu gün və sabah isə böyüklər arasında sol və sağ qollarla yarışlara start veriləcək. Hədəfimiz dünya çempionatının qalibi olmaqdır. Düşünürəm ki, belə davam etsək, idmançılarımız bu sevinci bizə yaşadacaqlar".

Qeyd edək ki, oktyabrın 28-də startı verilən çempionat bu gün başa çatacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Turan elləri*

# Şanlıurfa ən qədim Neolit irsini yaşadır

**Türkiyənin cənub-şərqində yerləşən Şanlıurfa minilliklərin sirlərini özündə daşıyan arxeoloji tapıntıları ilə bəşər tarixini işıqlandıran ən mühüm mərkəzlərdən biridir. Burada yerləşən "Taş Tepeler" (Daş Təpələr) bölgəsi - Göbəklitəpə və Karahantəpə kimi dünyanın ən qədim Neolit yaşayış məskənlərini özündə birləşdirir. Bu nadir tapıntılar sayəsində insanlıq tarixinin başlanğıcına dair baxışımız tamamilə dəyişir.**





Regionun parlayan ulduzlarından biri olan Karahantəpə bu il yenidən dünya arxeologiyasının diqqət mərkəzinə çevrilib. Son qazıntılar zamanı burada insan üzü təsvir edilmiş T formalı sütun aşkar olunub – bu, Neolit dövründə insan fiqurunun ən erkən və birbaşa təsvirlərindən biridir.

İndiyədək Göbəklitəpədə tapılan T formalı sütunlarda yalnız qollar və əllər oyulmuşdu. Bu yeni tapıntı isə insanın üz ifadəsini daşa köçürməsi baxımından tarixdə ilk nümunə sayılır. Sütunun yuxarı hissəsində işlənmiş üz təsviri – iti xətlər, dərin göz oyuqları və enli, yastı burun – Karahantəpədə tapılmış digər insan heykəllərinin üslubuna bənzəyir və o dövrün estetik düşüncəsini əks etdirir.

Bu ilin əvvəlində Karahantəpədə daha bir unikal artefakt tapılıb - dünyanın ən qədim üçölçülü mifoloji kompozisiyası. Arxeoloqlar qırmızı torpaqla örtülmüş, müəyyən ardıcıllıqla düzülmüş obyektlər aşkar ediblər. Bu tapıntı bir növ üçölçülü hekayə kimi insanın mifoloji təfəkkürünü əks etdirir və "Neolit dövrünün əsrin kəşfi" adlandırılır.

UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş Göbəklitəpə insanlıq tarixini dəyişdirən ən mühüm arxeoloji məkanlardan biridir. Burada tapılan nəhəng T formalı sütunlar, natural ölçülü, boyalı vəhşi donuz heykəli və divar içərisində yerləşdirilmiş insan fiquru qədim insanların inanc dünyasından xəbər verir.

Bu məkanı ziyarət etmək, sanki on min illər əvvələ - insanın ilk yaradıcı addımlarına səyahət etmək kimidir. Elə buna görə də hər il yüz minlərlə turist buraya axışır. Yalnız bu ilin ilk səkkiz ayında Göbəklitəpə 497 mindən çox ziyarətçi qəbul edib və Türkiyənin ən çox maraq doğuran arxeoloji məkanlarından birinə çevrilib.

Neolit dövrü irsini dərindən anlamaq istəyənlər üçün Şanlıurfa Muzeyi ideal dayanacaqdır. Türkiyənin ən böyük muzey kompleksi olan bu mərkəz qədim dövrlərdən bu günə qədər insanlıq tarixinin ardıcıl izlərini təqdim edir. Muzeyin yanında yerləşən Haleplibahçe Mozaika Muzeyi isə yerində qorunaraq nümayiş etdirilən nadir mozaikaları ilə diqqət çəkir.

"Açıq səma altında muzey" adlanan Şanlıurfa yalnız Neolit irsi ilə deyil, həm də zəngin mədəni irsi ilə seçilir. Balıqlıgöl, Harranın qübbəli evləri, qədim məscidlər və tarixi məhəllələr şəhəri sanki canlı tarix kitabına çevirir.

2025-ci ilin qazıntı mövsümü bölgədəki on arxeoloji sahədə davam edir. Bu ərazilərdə tapılan üçölçülü heykəllər, daş qablar, muncuqlar və simvolik relyeflər insan yaradıcılığının ilkin səhifələrini göz önünə sərir. Hər bir tapıntı bəşər sivilizasiyasının doğuluşuna açılan pəncərədir.

***N.ADİLQIZI***
***XQ***

# "Qərbi Azərbaycan hekayələri" Özbəkistanda





**Daşkənd şəhərində fəaliyyət göstərən Əlişir Navai adına Özbək dili və Ədəbiyyatı Universitetində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) layihəsi çərçivəsində hazırlanan "Qərbi Azərbaycan hekayələri" kitabının təqdimatı keçirilib.**

Mərasimdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq məsələlər üzrə prorektoru, professor Mahirə Nağıqızı, Əlişir Navai adına Özbək Dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri Məhəmmədiyar Əsədov, Özbəkistan Yazıçılar Birliyinin sədr müavini Qeyrət Məcid, ədəbiyyatşünas, şair, DGTYB-nin MŞ üzvü Xasiyyət Rüstəm, tərcüməçi Hafizə Qoşqarova, Məhəmməd Füzuli adına Elmi-Tədqiqat Mərkəzinin rəhbəri, filologiya elmləri doktoru, professor Gülbahar Aşurova, universitetin professoru, filologiya elmləri doktoru İslam Yaqubov, Təbriz Universitetinin müəllimi, filologiya elmləri doktoru Fərhad Rəhimi, "Türk dünyasında Qərbi Azərbaycan mövzusu" layihəsinin rəhbəri, şair, publisist İntiqam Yaşar çıxış ediblər.

Mərasimdə "Qərbi Azərbaycan hekayələri"-nin çapının əlamətdar hadisə olduğu vurğulanıb və kitabın özbək türkcəsinə uyğunlaşdırıldığı diqqətə çatdırılıb. Topluda yer alan hekayələrin müəllifləri Mahirə Nağıqızı, Azər Abdulla, Məmməd Oruc, Güldərən Vəliyeva və Şəfa Vəli əslən Qərbi Azərbaycandan olan yazarlardır.

Əsərlərdə Qərbi Azərbaycanın tarixi yaddaşı, deportasiya mövzusu və milli kimliyin qorunması kimi mövzular öz əksini tapır.

***Ə.ƏLİYEV***
***XQ***

*HAVA*

## Yağmursuz bir cümə günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 10-14, gündüz 18-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 7-12, gündüz 18-22 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***



*✓ 2021-ci il aprelin 5-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "A ƏND J HOLDİNQ" MMC-yə özəl tibb fəaliyyətini həyata keçirmək üçün verilmiş İN\L-139\2021 qeydiyyat nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır. VÖEN -1700516031.*

*✓ Xaçmaz rayonunun Qoçaqlı kənd sakini Eskəndərov Fərman Raiddin oğlunun lizinqə aldığı traktorun AZ seriyalı, 021746 nömrəli şəhadətnaməsi və malanın AQ seriyalı, 020577 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

**ELAN**

*✓ Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyevin 2017-ci ildən təsisçisi olduğu Sənətşünaslığın Təbliği İctimai Birliyi təsisçinin vəfatı ilə əlaqədar olaraq 2025-ci ildən fəaliyyətini dayandırmışdır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Professor Vahid Novruzov professor Elçin Xəlilova anası

**RƏNA XƏLİLOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3508
SİFARİŞ 2208
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00